# DƏHŞƏTLİ QƏZANIN YARATDIĞI SUALLAR

Körpülərdə hərəkətə nəzarət gücləndirilməlidir. İlk növbədə yük avtomobillərinin texniki vəziyyətinə diqqət artırılmalıdır.

Biləcəridə baş verən yol-nəqliyyat hadisəsi şok effekti yaratdı. "KamAZ"ın körpüdən digər maşının üstünə aşması nəticəsində sürücü də daxil olmaqla, üç nəfər həyatını itirdi. Bir neçə nəfər isə ağır bədən xəsarəti aldı. Bir neçə ay öncə Heydər Əliyev prospektindəki Bağırov körpüsünün ətrafında "uçan taksi" hadisəsi də yaddaşlardan silinməyib.



SƏHİFƏ 8-də



## BÖYÜK QAYIDIŞ UĞURLA DAVAM EDİR

Qayıdışın növbəti ünvanı Xocavənd rayonunun Hadrut qəsəbəsi və Xocalı rayonunun Badara kəndi olub. Bir gün əvvəl isə Xocalının Şuşakənd kəndinə ilk köç reallaşıb. Ağdərə rayonunun Vəngli kəndinə də 29 ailə - 105 nəfər köçürülüb.

SƏHİFƏ 2-də


'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ



13 SENTYABR ŞƏNBƏ 2025 № 35 (4236) Qiyməti - 60 qəpik www.kaspi.az




## YAPONİYA SİYASİ DƏYİŞİKLİKLƏR ASTANASINDA

Yaponiyada Baş nazir postu uğrunda gələcək yarışın favoritləri sırasında keçmiş baş nazirin oğlu Şindziro Koidzumi və son dərəcə sağçı görüşlərə sahib olan qadın Sanae Takaitinin adı daha çox hallanır.

SƏHİFƏ 5-də

AZƏRBAYCAN VƏ ABŞ RƏSMİLƏRİ ARASINDA İNTENSİV DİALOQ

# BAKI VƏ VAŞİNQTON QƏRARLIDIR



Dünyanın supergücü olan ABŞ ilə qarşılıqlı maraqlara və bərabərhüquqlu hörmətə əsaslanan ikitərəfli əlaqələrdə yeni səhifənin açılması həm bölgəmiz, həm də ölkəmiz üçün yeni fürsətlər vəd edir.

**REGİONAL SÜLH VƏ TƏRƏQQİYƏ TÖHFƏ**

ABŞ-nin Orta Dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının nümayəndələri Bakıda görüşlər keçirib. Müzakirələrdə Vaşinqton razılaşmalarının regional sülh və tərəqqiyə töhfəsi qeyd edilməklə yanaşı, Azərbaycan-ABŞ əlaqələri üçün böyük perspektivlər açdığı vurğulanıb.

**AZƏRBAYCAN RƏSMİLƏRİ VAŞİNQTONDA**

ABŞ nümayəndələrinin Bakı səfəri ilə yanaşı, Azərbaycan nümayəndə heyəti də eyni anda sözügedən istiqamətdə Vaşinqtonda mühüm görüşlər keçirir, danışıqlar aparır. Tramp-Əliyev görüşündə əldə olunan razılaşmaların irəliləndilməsi üçün ABŞ-nin digər institusional qurumları ilə intensiv dialoq təşkil edilir.

SƏHİFƏ 3 -də



## BANKLARIN BİZNES KREDİTLƏRİNƏ MARAĞI ARTIB

Ekspertlər qeyd edirlər ki, bazarda özünü tutmuş biznes subyektləri ilə işləmək banklar üçün daha faydalıdır. Bu şəxslərin müştəri seqmenti olduğu üçün onlara kredit vermək az riskli sayılır.

SƏHİFƏ 13-də



## VƏTƏNDAŞ DA QAZANMAQ İSTƏYİR, ŞİRKƏT DƏ

Sökүntü işləri zamanı köhnə mənzil sahibləri və tikinti şirkətləri əksər hallarda razılığa gələ bilmirlər. Ekspertlərin rəyləri bu məsələdə heç də birmənalı deyil. Bir qisim vətəndaşı, digər qisim isə tikinti şirkətlərini haqlı sayır.

SƏHİFƏ 11-də

Baca təmizliyində icbarilik tələbi

# BACADAN GƏLƏN SƏSSİZ TƏHLÜKƏ



Yay başa çatır, qarşıdan soyuq günlər gəlir. Bir müddət sonra evlərdə sobalar işə düşəcək. Evlərimizi isitmək üçün açdığımız o kiçik qapılar, bəzən görünməyən bir təhlükəyə yol açır. Səssiz və ölümcül dəm qazı hər mövsüm bizi gözləyir. Statistika göstərir ki, hər il dəm qazından zəhərlənmə halları artmaqdadır. Mütəxəssislərin fikrincə, bu kimi halların əsas səbəblərindən biri tüstü bacalarındakı problemlərdir.

SƏHİFƏ 14-də



## ASİYANIN TƏZADLAR ŞƏHƏRİNDƏN REPORTAJ

Kuala Lumpur şəhərini Nyu-Yorkun Asiya versiyasına bənzədirlər. Şəhərdə etnik müxtəliflik xüsusilə nəzərə çarpır və hər şeydə özünü göstərir: memarlıqdan və kulinariyadan tutmuş taksi sürücülərinə qədər.

SƏHİFƏ 15-də



## STASİONAR TELEFONLAR TARİX OLUR?

Son on ildə Azərbaycanda stasionar telefonlardan istifadədə nəzərəçarpan azalma müşahidə edilir. Bəzi insanlar üçün stasionar telefon artıq sosial simvol və nostalji element kimi qəbul olunur.

SƏHİFƏ 12-də





Orta Dəhlizə artan tələbat

SƏHİFƏ 10-da



Riskli neft, ümid verən qızıl

SƏHİFƏ 4-də



Avtomobil sevgimiz azalmır

SƏHİFƏ 7-də



İnterval 1 dəqiqə 45 saniyəyə endiriləcək

SƏHİFƏ 2-də



Cəmi bir günə dəyişən yığma

SƏHİFƏ 16-da



## İNTERVAL 1 DƏQİQƏ 45 SANİYƏYƏ ENDİRİLƏCƏK

"Bakı Metropoliteni" QSC tərəfindən sentyabrın 15-dən tətbiq ediləcək payız-qış hərəkət qrafikinə əsasən, metropoliten tarixində ilk dəfə pik saatlarda qatarlar arasında interval 1 dəqiqə 45 saniyəyə endiriləcək.

QSC-dən bildirilib ki, bu göstərici 34 cüt/saat prinsipi (1 saat ərzində 1 stansiyadan hər iki istiqamətdə keçən qatarların sayı) əsasında əldə olunub və bununla da son bir il ərzində artıq ikinci dəfə tarixi rekord qeydə alınıb.

Cari ilin may ayında mövcud texniki imkanlar daxilində aparılmış təkmilləşmə işləri sayəsində interval pik saatlarda 1 dəqiqə 52 saniyəyə endirilmişdi. İndi isə görülmüş əlavə tədbirlər, rəqəmsallaşma sahəsində tətbiq olunmuş yeniliklər pik saatlarda qatarların hərəkətinin daha da sıxlaşdırılmasına imkan yaradıb.

Qeyd edilən texniki və rəqəmsal yeniliklər sayəsində 34 cüt qatarla hərəkət sxeminə keçid öz növbəsində sərnişindaşıma potensialını əhəmiyyətli dərəcədə artırır. Beş vaqondan ibarət bir qatarın maksimal tutumunun 1600 nəfər olduğunu nəzərə alsaq, bu hesabla, hər iki istiqamətdə əlavə olunan qatarların daşıma gücü eyni vaxtda 6400 sərnişinə çatır. Yeni qrafik üzrə təşkil olunmuş 34 cüt qatarın dövriyyəsi nəticəsində pik saatların ümumi müddəti ərzində, yəni təxminən 4,5 saatda 28 min 800 sərnişinin daşınması mümkün olacaq. İş günlərinin ümumi həcmi ilə birlikdə bu rəqəm illik hesabla 8 milyondan artıq sərnişinin daşınmasına əlavə imkan yaradacaq.

Yeni qrafikə əsasən "28 May–Əhmədli" sahəsində:

• İş günləri səhər (saat 07:30–09:30) və axşam (saat 17:00–19:30) pik saatlarda interval 1 dəqiqə 45 saniyə təşkil edəcək.

• Səhər saat 07:00–07:30 aralığında interval 1 dəqiqə 52 saniyə, 09:30–10:00 aralığında isə 2 dəqiqə olacaq.

• Axşam 19:30–20:00 aralığında interval 2 dəqiqəyə qədər saxlanılacaq.

Müvafiq normativ və təhlükəsizlik standartları nəzərə alınmaqla son bir ay ərzində aparılan sınaqlar uğurla başa çatdırılıb.

Pik saatlarda intervalda edilmiş bu dəyişiklik sərnişinlərin rahat və təhlükəsiz hərəkətinin təminatı istiqamətində mühüm nəticə olmaqla yanaşı, sentyabrın 15-dən proqnozlaşdırılan sərnişin tələbatının qarşılanması baxımından da əlavə imkanlar yaradır.

# BÖYÜK QAYIDIŞ UĞURLA DAVAM EDİR



**Böyük Qayıdışın növbəti ünvanı Xocavənd rayonunun Hadrut qəsəbəsi və Xocalı rayonunun Badara kəndi olub. Bir gün əvvəl isə Xocalının Şuşakənd kəndinə ilk köç reallaşıb. Ağdərə rayonunun Vəngli kəndinə də 29 ailə - 105 nəfər köçürülüb.**

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış uğurla davam etdirilir. Bərpa edilən və məskunlaşdırılan yaşayış məntəqələrinin sayı artır.

### HADRUTA VƏ BADARAYA QAYITDILAR

Sentyabrın 12-də Böyük Qayıdışın növbəti ünvanı Xocavənd rayonunun Hadrut qəsəbəsi və Xocalı rayonunun Badara kəndi olub. Bu ərazilərə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. İlk mərhələdə Badara kəndinə 14 ailə - 55 nəfər, Hadrut qəsəbəsinə isə 10 ailə - 41 nəfər köçürülüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

### ŞUŞAKƏND DƏ SAKİNLƏRİNİ QARŞILADI

Bir gün əvvəl isə Xocalının Şuşakənd kəndinə ilk köç olub. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Böyük Qayıdış çərçivəsində ilk mərhələdə kəndə 15 ailədən ibarət 59 keçmiş məcburi köçkün qayıdıb.

Mənzillərin açarları ailələrə təqdim edilib. Şuşakənd kəndində sakinlərin rahat və təhlükəsiz yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb. Kənddə müasir standartlara cavab verən yeni yollar çəkilib. Sakinlər elektrik enerjisi, təbii qaz və içməli su ilə tam təmin olunublar. Bununla yanaşı, sosial obyektlərin fəaliyyətə başlaması üçün də zəruri şərait yaradılıb.

Tədbirdə çıxış edən Prezidentin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov sakinləri tarixi dönüş münasibətilə təbrik edib.

## VƏNGLİYƏ DAHA 29 AİLƏ KÖÇÜRÜLDÜ



Ağdərə rayonunun Vəngli kəndinə də növbəti köç reallaşıb. Buraya yeni köç edən ailələrə mənzillərin açarları təqdim olunub. Mərasimdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Bu mərhələdə Vəngli kəndinə 29 ailə - 105 nəfər köçürülüb. Ağdərəyə köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Açarların təqdimolunma mərasimdə çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov sakinləri doğma yurdlarına qayıtmaları münasibətilə təbrik edərək, onlara xoş arzularını çatdırıb, kənddə sakinlər üçün yaradılan şəraitdən danışıb. ANAMA-nın əməkdaşları sakinlərə mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat veriblər. Tanımadıqları naməlum əşyalardan və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə edilib.

Qeyd edək ki, işğaldan azad edilən ərazilərə qayıdış proqramı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqətindədir. Dövlət başçısı qayıdış prosesi reallaşan yaşayış məntəqələrinə dəfələrlə səfər edib, yaradılan şəraitlə yerində tanış olub, müvafiq tapşırıqlarını verib.

# BAKI VƏ VAŞİNQTON QƏRARLIDIR

Dünyanın supergücü olan ABŞ ilə qarşılıqlı maraqlara və bərabərhüquqlu hörmətə əsaslanan ikitərəfli əlaqələrdə yeni səhifənin açılması həm bölgəmiz, həm də ölkəmiz üçün yeni fürsətlər vəd edir.






AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə avqustun 8-də Vaşinqtona səfəri iki ölkə arasında münasibətlərin inkişafında yeni səhifənin açılmasına imkan yaratdı. Bakı ilə qarşılıqlı əməkdaşlıqla bağlı imzalanan razılaşmalar, gələcək effektli münasibətlər sisteminin formalaşdırılması üçün intensiv müzakirələr, 907-ci düzəlişin ləğvi Ağ Evin Cənubi Qafqazda Azərbaycanın lider mövqeyini qəbul etdiyini göstərir. Vaşinqtonda imzalanan sənədlərin gələcəyinə skeptik yanaşanların olmasına baxmayaraq, son günlərdə yaşanan proseslər bunun əksini isbatlayır.

### İLHAM ƏLİYEVƏ XÜSUSİ HÖRMƏTİN BARİZ NÜMUNƏSİ

Öncə ondan başlayaq ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri ilə bağlı Nazirlər Kabinetinin ardından Milli Məclisdə də xüsusi dinləmələr keçirilib. Deputatlar dövlət başçısının apardığı uğurlu və uzaqgörən siyasət nəticəsində iki ölkə arasında münasibətlərin indiki qədər yüksək səviyyədə olmadığı qənaətini ortaya qoyublar.

Qeyd olunub ki, bu razılaşmalar, eyni zamanda, Azərbaycanın ABŞ ilə əlaqələrinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsidir və ölkəmizin beynəlxalq iqtisadi inteqrasiyasının daha da genişlənməsinə töhfəsini verəcək. Deputatların sözlərinə görə, Ağ Evdə uzun illər Azərbaycana qarşı ədalətsiz sanksiya kimi istifadə olunan "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılması isə ikitərəfli münasibətlərdə yeni və olduqca parlaq bir səhifənin açılmasının simvolu oldu. Onlar ABŞ Prezidenti Donald Trampın bu qərarı məhz Prezident İlham Əliyevin iştirakı ilə imzalamasını dövlətimizin başçısına və Azərbaycana göstərilən xüsusi hörmətin bariz nümunəsi kimi qiymətləndiriblər.

### İNTENSİV DİALOQUN ŞAHİDİ OLURUQ

Son günlərdə iki ölkə arasında rəsmi səviyyədə də intensiv dialoqun şahidi oluruq.

Sentyabrın 8-də ABŞ-nin Orta Dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının nümayəndələri Azərbaycana səfər edib. Aparılan müzakirələrdə Vaşinqton razılaşmalarının regional sülh və tərəqqiyə töhfəsi qeyd edilməklə yanaşı, Azərbaycan-ABŞ əlaqələri üçün böyük perspektivlər açdığı vurğulanıb. Bu xüsusda ölkənin qərb bölgələri ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişi təmin edəcək layihənin əhəmiyyəti diqqətə çatdırılıb. "ABŞ şirkətləri Zəngəzur dəhlizi ilə bağlı layihələrdə iştirak etmək, tenderlərdə öz təkliflərini vermək imkanını məmnuniyyətlə qarşılayacaqlar", - deyə ABŞ İnkişaf Maliyyələşdirmə Korporasiyasının (DFC) icraçı direktoru Kennet Angell ölkəsinin Cənubi Qafqazda prioritetini bir daha ortaya qoyub.

ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunun baş rəsmisi Brendan Hanrahanın səfərində isə başlıca diqqət məhz Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişafına yönəlib. Xarici işlər naziri Ceyhun Bayramov, İqtisadiyyat naziri Mikayıl Cabbarovla keçirilən görüşlər zamanı Azərbaycan-ABŞ münasibətləri, Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumundan irəli gələn məsələlər müzakirə olunub.

## 907-Cİ DÜZƏLİŞİN LƏĞVİNİN VACİBLİYİ





Maraqlı cəhət budur ki, dövlətlərarası münasibətlərin gələcəyinə fokuslanan məlum səfərlər biristiqamətli deyil. ABŞ nümayəndələrinin Bakı səfəri ilə yanaşı, Azərbaycan nümayəndə heyəti də eyni anda sözügedən istiqamətdə Vaşinqtonda mühüm görüşlər keçirir, danışıqlar aparır. Tramp-Əliyev görüşündə əldə olunan razılaşmaların irəlilədilməsi üçün ABŞ-nin digər institusional qurumları ilə intensiv dialoq təşkil edilir. Bu məqsədlə ABŞ-yə səfər edən Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev burada ABŞ Konqresinin Nümayəndələr Palatasının (aşağı palata) Xarici Əlaqələr Komitəsinin sədri Brayan Mast və senator Stiv Dayns ilə görüşüb. Görüşlərdə Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ lideri Donald Tramp arasında avqustun 8-də Vaşinqtonda keçirilən sammitin strateji əhəmiyyəti, onun Azərbaycan-ABŞ münasibətləri və regional sülh üçün müsbət nəticələri vurğulanıb. Azərbaycan Prezidentinin köməkçisi 907-ci düzəlişin ləğvinin vacibliyini vurğulayıb. Hikmət Hacıyev Vaşinqtonda ABŞ dövlət katibinin müavini Kristofer Landau ilə görüşüb. Tərəflər Azərbaycan və ABŞ arasında strateji münasibətləri, eləcə də regional məsələləri müzakirə ediblər.

### BÖLGƏMİZ ÜÇÜN YENİ FÜRSƏTLƏR

Göründüyü kimi, Prezident İlham Əliyevin tarixi qələbəmizdən sonra beynəlxalq səviyyədə yürütdüyü real siyasət, milli maraqların müdafiəsinin ön planda tutulması Bakının artan rolunun və nüfuzunun əsasını təşkil edir. Dünyanın super gücü ilə qarşılıqlı maraqlara və bərabərhüquqlu hörmətə əsaslanan ikitərəfli əlaqələrdə yeni səhifənin açılması isə həm bölgəmiz, həm də ölkəmiz üçün yeni fürsətlər vəd edir. Məhz bu əməkdaşlıq sayəsində Cənubi Qafqazda sülh və sabitliyin, iqtisadi inteqrasiyanın, kommunikasiya əlaqələrinin bərpasına mane olmaq istəyən qüvvələrin planları neytrallaşdırılır. Qarşıya qoyulan hədəflərə çatmaq, ən əsası, milli maraqlarımızın müdafiəsi siyasəti uğurla həyata keçirilir.

### ZƏNGƏZUR DƏHLİZİ ÜÇÜN 145 MİLYON DOLLAR

Yeri gəlmişkən, ABŞ Zəngəzur dəhlizi (Tramp marşrutu) layihəsinin həyata keçirilməsi üçün Ermənistana 145 milyon dollar yardım ayırmaq niyyətindədir. Bunu ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə Bürosunun direktoru Brendan Henrehen İrəvanda Ermənistanın baş nazirinin müavini Mher Qriqoryanla görüşündə deyib.

"Konqreslə əməkdaşlıq çərçivəsində biz Ermənistana 145 milyon dollar verməyi planlaşdırırıq. Bu, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu təşəbbüsü və avqustun 8-də əldə olunmuş müvafiq razılaşmalar çərçivəsində maliyyənin ilk transışıdır", - Henrehen bildirib.

# RİSKLİ NEFT, ÜMİD VERƏN QIZIL




Ölkəmiz üçün əsas risk neft qiymətlərinin aşağı düşməsidir. Lakin qızıl kimi qeyri-neft məhsulunun qiymətinin artması bu təsiri bir qədər yumşalda bilər. Neft satışından itirdiyimiz gəlirləri qızıl ixracından bərpa edə bilərik.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

ABŞ-də açıqlanan son iqtisadi məlumatlar qlobal əmtəə bazarlarına ciddi təsir göstərib. Qızılın qiyməti rekord qıraraq 3 586 dollar/unsiya səviyyəsinə yüksəlib və bununla da tarixi zirvəni yeniləyib. Son üç ildə həm qızıl, həm də gümüş iki dəfədən çox bahalaşıb ki, bu da geosiyasi risklərin, iqtisadi qeyri-müəyyənliklərin və qlobal ticarətdəki problemlərin "təhlükəsiz liman"a olan tələbi artırması ilə bağlıdır. Paralel olaraq, "Brent" markalı neftin qiyməti isə 2,2% azalaraq 66,14 dollara düşüb. ABŞ Prezidenti Donald Trampın Federal Ehtiyat Sisteminə (FED) yönəlik artan təzyiqləri bazarlarda əlavə qeyri-müəyyənlik yaradıb. "Goldman Sachs"ın proqnozlarına görə, güclü mərkəzi bank alışları və investorların aktivlərini qızıla yönəltməsi fonunda qiymətlərin 2025-ci ilin sonuna qədər 3 700 dollara, 2026-cı ilin ortalarında isə 4 000 dollara çatması mümkündür. Rəqəmlərdən göründüyü kimi dünya bazarında qızıl sürətlə bahalaşır, neft ucuzlaşır. Bu, bizi hara aparır? Ölkə iqtisadiyyatına nə vəd edir?

### DALĞALANMALAR AZƏRBAYCANA DA TƏSİR EDƏCƏK

İqtisadçı Elçin Əkbərovun sözlərinə görə, dünya bazarlarında qızılın qiymətinin artıb, neft qiymətlərinin aşağı düşməsi Azərbaycana da təsirsiz ötüşməyəcək: "Ölkəmiz həm qızılın, həm də neftin ixracatçısıdır. Artıq bu ildən qızıl ixracı qeyri-neft ixrac məhsullarımız arasında liderdir (2025-ci il, yanvar-iyul: 178.8 milyon dollar). Bu baxımdan qızılın qiymətinin artımı gəlirlərin artımı anlamına gəlsə də, həm də qızıl məmulatlarının idxalatçısı olduğumuz üçün bu, eyni zamanda ölkədən valyuta axınının artımı deməkdir".

İqtisadçının sözlərinə görə, neft qiyməti büdcə gəlirlərinin hesablanması zamanı 70 dollar/barrel nisbəti ilə nəzərə alındığına görə həddən artıq ucuzlaşma büdcə kəsiri ilə nəticələnə bilər: "2025-ci il üzrə dövlət büdcəmizin gəlir proqnozu 38.36 milyard manatdır. Yəni, büdcə gəlirlərinin 37%-dən yuxarı hissəsi ARDNF transferti hesabına formalaşır".

### "İQTİSADİYYATIMIZ TƏZYİQ ALTINDA QALACAQ"

E.Əkbərovun fikrincə, iqtisadiyyatımızı qorumaq üçün müəyyən addımlar atılmalıdır: "Ölkəmizin qeyri-neft ixracı davamlı şəkildə artmaqdadır, bu, sevindirici haldır. Ancaq artım tempi zəif olaraq qalır. Belə ki, 2025-ci ilin ilk yeddi ayında qeyri-neft ixracı cəmi 2.09 milyard dollar təşkil edib və buraya qeyd etdiyimiz qızıl ixracı da daxildir. Neft-qaz ixracı dollar axınını azaltdıqca, manatın məzənnəsinin qorunması üçün Mərkəzi Bank tərəfindən daha çox intervensiyaya ehtiyac duyula bilər".

İqtisadçı bu durumda iqtisadiyyatımız üçün yarana biləcək risklərdən də bəhs etdi: "Qızılın qiymətinin qalxması ilə paralel neft qiymətinin enməsi Azərbaycan üçün qarışıq siqnaldır. Ölkəmiz üçün əsas risk neft qiymətlərinin aşağı düşməsidir, lakin qızıl kimi qeyri-neft məhsulunun qiymətinin artması bu təsiri bir qədər yumşalda bilər. Ümumilikdə, qlobal iqtisadi yavaşlamanın Azərbaycana ixrac və investisiya kanalları ilə ötürülə biləcək təhlükəsi var. Neft-qaz gəlirlərinin azalması ilə iqtisadiyyatımız müəyyən qədər təzyiq altında qalacaq".




## "Azalmalar tranzit gəlirləri ilə kompensasiya oluna bilər"

Müsahibimiz düşünür ki, logistika imkanlarımızın artması ilə itirdiyimiz gəlirləri geri qaytarmaq mümkündür: "Alternativ enerji istehsalına yatırımlar artmaqdadır. Bu isə artıq başlanmış prosesin yaxın illərdə daha da sürətlənməsi ilə ölkə daxilində istehlak edilən neft-qaz resurslarına qənaət edərək onları ixrac etməyə və daha çox gəlir qazanmağa imkan verəcək. Ölkəmizdən keçən Orta Dəhliz boyu yük daşımalarının artması ilə neft-qaz satışından itirilən azalmalar tranzit gəlirləri ilə kompensasiya oluna bilər".

### NEFTİN UCUZLAŞMASI İNFLYASİYANI AŞAĞI SALACAQ

İqtisadçı Elçin Rəşidovun fikrincə, neft ucuzlaşdıqca gəlirlərimiz də azalır: "Əvvəlki illərdə ölkəmizin gəlirinin yarısından çoxu neft hesabına olub. Bu baxımdan ucuzlaşma təbii ki, gəlirlərimizə təsir edəcək. Amma bunun büdcəyə təsiri azdır. Ümid edək bu proses uzunmüddətli olmayacaq. Əgər neftin qiyməti uzun müddət ucuz olaraq qalarsa, Dövlət Neft Fondunda yığılan ehtiyatlar da azalacaq. Beləliklə də manat üzərində təzyiq yaranacaq. Bir məsələ də var ki, neftin ucuzlaşması enerji xərclərini aşağı çəkməklə inflyasiyanın qarşısını ala bilər. Ümumilikdə neftin ucuzlaşması Azərbaycan kimi neft ixrac edən ölkələrdə tədiyyə balansı, büdcə problemləri, iqtisadiyyat üçün risklər yaradır. Qızıl ixracatçısı olduğumuzdan qızılın qiymətinin yüksəlməsi ehtiyatlarımıza dəyər gətirir, həmçinin gəlirlərimiz artır".

E.Rəşidovun sözlərinə görə, dünyadakı baş verəcək proseslər qiymətləri tənzimləyəcək: "Qızılın ixrac həcmi arta bilər. Qızıl neftdən fərqli olaraq proporsionaldır. Yəni qızılın qiyməti iki dəfə artırsa, gəlirlər də o qədər artır. Qızılın qiymətinin daha da artması mümkündür. Dünyadakı müharibələr də bu prosesə təsir edir. Neft qiymətləri qısamüddətli aşağı düşə bilər. Amma bu, uzun müddət olmayacaq. Neftdə uduzduğumuz gəlirləri qızıl ixracında bərpa edə bilərik. Qızılın unsiyasının qiymətinin beş min dollara qədər qalxacağını da proqnoz edirlər. Bu da inflyasiya gözləntilərinin artdığını göstərir. Gələcəkdə hər şey ABŞ Prezidenti və FED arasındakı münasibətlərdən asılı olacaq".

# YAPONİYA SİYASİ DƏYİŞİKLİKLƏR ASTANASINDA

Baş nazir postu uğrunda gələcək yarışın favoritləri sırasında keçmiş baş nazirin oğlu Şindziro Koidzumi və son dərəcə sağçı görüşlərə sahib olan qadın Sanae Takaitinin adı daha çox hallanır. İşiba hökumətində iqtisadiyyat və xarici işlər naziri kimi yüksək postlar tutan 64 yaşlı Takaiti LDP sədri seçiləcəyi təqdirdə, Yaponiya tarixində ilk qadın baş nazir olacaq.



AZƏR NURİYEV



## Hakim partiya daxilində gərginlik yaşanır

Yaponiya Baş naziri Şigeru İşibanın istefa qərarı həm ölkədə, həm də regionda ciddi rezonans doğurub. Bu xəbər ölkənin milli valyutasının - ienin məzənnəsindən tutmuş, regional məsələlərə də təsir edib. Şigeru İşiba sentyabrın 7-də hakim koalisiyanın seçkilərdə ağrılı məğlubiyyətlərinə görə məsuliyyəti öz üzərinə götürərək vəzifəsindən getdiyini bildirib. O, vəzifədə bir ildən az - 2024-cü il oktyabrın 1-dən etibarən olub. 68 yaşlı siyasətçi lideri olduğu Liberal Demokrat Partiyasına (LDP) yeni liderin seçilməsi üçün təcili seçkilər keçirməyi tapşırıb. Seçkilər başa çatanadək İşiba hökumət başçısı vəzifəsini icra edəcək.

### VAŞİNQTONLA TARİF RAZILAŞMASI

Baş nazirin sözlərinə görə, istefa qərarı birbaşa Vaşinqtonla Donald Trampın administrasiyasının tarif siyasəti ilə bağlı razılaşmaların tamamlanması ilə əlaqədardır. Ötən həftə Yaponiya və ABŞ Tokionun 550 milyard dollar həcmində investisiyaları müqabilində ABŞ rüsumlarının tədricən azaldılması barədə razılığa gəliblər. İşibanın sözlərinə görə, yeni saziş Yaponiya avtomobil sənayesinə ciddi zərbə vuran məhdudiyyətləri aradan qaldırıb. İyul ayında ABŞ və Yaponiya ABŞ-yə idxal olunan mallara 15% rüsum tətbiq edilməsini nəzərdə tutan ticarət sazişi imzalayıb. Tramp bu sazişi indiyə qədər imzalanmış ən böyük saziş adlandırıb. Saziş ərəfəsində Tramp Yaponiyadan gələn bütün mallara 25% ümumi tarif tətbiq ediləcəyini elan etmişdi.

Baş nazirin istefa qərarı müxtəlif amillərlə əlaqələndirilir. Əsas səbəblər sırasında xalq arasında onun sədri olduğu partiyanın nüfuzunun düşməsi də var. Bir məsələni də qeyd edək ki, Baş nazirin istefası xəbəri həm də regionda Çinin artan hərbi nüfuzu fonunda baş verir. Çin bu yaxınlarda yapon işğalçıları üzərində qələbənin 80 illiyini hərbi paradla qeyd edib.

İşiba hakimiyyətə gəldikdən sonra uğursuz fəaliyyətdə günahlandırılır. Hətta bildirilir ki, İşiba bütün seçkiləri uduzub. Nəticədə LDP öz tərəfdaşı ilə birlikdə çoxluğu itirib, azlıq hökuməti yaratmaq və müxalifətlə əməkdaşlıq etmək məcburiyyətində qalıb. Bu, müstəqil qərarlar qəbul etmək və liberal-demokratlara lazım olan kursu həyata keçirmək imkanını kəskin şəkildə zəiflədib. Məhz buna görə İşiba kəskin tənqid edilirdi. Partiyanı kim idarə etsə də, o, ciddi çağırışla üzləşəcək: LDP-nin reytinqi azalmaqda davam edir və hazırda 30% ətrafındadır. Belə bir vəziyyətdə növbədənkənar seçkilər LDP-nin mövqelərini bərpa etməsinə çətin ki, kömək etsin. Lakin bu vəziyyət ölkənin iqtisadi problemləri fonunda populyarlıq qazanan sağçı populist "Sanseito" partiyası timsalında rəqibləri gücləndirə bilər. Bu o deməkdir ki, yeni Baş nazir istənilən halda müxalifətdə dayaq axtarmalı olacaq: onların səsləri olmadan parlamentdən təşəbbüsləri keçirmək mümkün olmayacaq. Beləliklə, hökumətin yeni başçısı yenə də böyük ehtimalla LDP üzvü olacaq. Buna baxmayaraq, LDP-dəki daxili böhran o qədər kəskin xarakter alıb ki, onun bütün yüksək vəzifəli şəxsləri İşibanın nümunəsini izləyərək, vəzifələrindən getməyi qərara alıblar.

### NÖVBƏTİ BAŞ NAZİR KİM OLACAQ?

Baş nazir postu uğrunda gələcək yarışın favoritlərinə gəlincə, indi İşibaya bərabər fiqur görünmür. Mətbuat keçmiş baş nazirin oğlu Şindziro Koidzumi və son dərəcə sağçı görüşlərə sahib olan qadın Sanae Takaiti haqqında yazır. İşiba hökumətində iqtisadiyyat və xarici işlər naziri kimi yüksək postlar tutan 64 yaşlı Takaiti LDP sədri seçiləcəyi təqdirdə, Yaponiya tarixində ilk qadın baş nazir olacaq. Bundan başqa, Şindziro Koidzumi, Yoşimasa Hayaşi, Yoşihiko Noda və Yuiçiro Tamaki də iddialı namizədlər sırasındadırlar. Qeyd edək ki, Sanae Takaiti son seçkilərdə Şigeru İşiba ilə ikinci tura qalmış, istefaya hazırlaşan baş nazirə 21 səs fərqlə (215-194) məğlub olmuşdu.




Bundan əlavə, Yaponiyanın sabiq xarici işlər naziri Toşimitsu Moteqi İşibanın istefa qərarından sonra hakim LDP-nin liderlik yarışında iştirak edəcəyini açıqlayıb. LDP-nin də sabiq baş katibi olan Moteqi partiyasında və hökumətdə qazandığı təcrübədən istifadə edərək, ölkəsinə fayda vermək istədiyini bildirib. Göründüyü kimi, Yaponiya Baş nazirinin istefası və onun ətrafında maraqlı proseslər yaşanır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# TƏLƏBƏLƏRİN YATAQXANA DƏRDİ

Bu il də universitetlərdə təhsil alan tələbələrin yataqxana ilə təmin olunması alınmayacaq. Məcburi köçkünlərin ixtiyarına verilən universitet yataqxanaları hələ də boşaldılmayıb.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Hər il ali məktəblərdə yeni tədris ili başlayanda yataqxana məsələsi də gündəmə gəlir. Xüsusən paytaxtda kirayə evlərin qiymətlərinin günü-gündən qalxması valideynlərə əl vermədiyindən, onlar övladlarının yataqxanada yerləşməsi, ümumən tələbə mühitində yaşaması üçün çalışırlar. Təəssüf ki, valideyn və tələbələrin bu narahatlığı həmişə asanlıqla çözülmür.

Təhsil eksperti İlham Əhmədovun sözlərinə görə, xüsusən paytaxtda universitetlərin yataqxana ilə təminatı aşağı səviyyədədir. “Universitetlərin təxminən beş faizinin yataqxanası var. Onlar da yalnız 5-10 faiz tələbəni yerlə təmin edə bilirlər. Bakıda mənzillərin kirayə qiyməti, təhsil haqqı günbəgün qalxır. Valideynlər üçün bu xərclər yük olur. Kirayədə qalan tələbələrin əksəriyyəti rayonlardan gəlir. Bu problemi həll etmək isə təkcə universitetin gücü daxilində deyil, dövlətin də dəstəyi lazımdır”.

Hazırda paytaxt və bölgələrdəki universitetlərin yataqxana şəraiti ilə maraqlanmaq üçün bir sıra ali məktəbə sorğu ünvanladıq.

### HƏM YERLİ, HƏM DƏ ƏCNƏBİ TƏLƏBƏLƏR...

“Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) yataqxanası köhnədir”, - deyə universitetin mətbuat xidmətindən Elnur Hadıyev sualımızı cavablandırdı: “Əvvəlki illərlə müqayisədə yataqxanalarda xüsusi bir dəyişiklik yoxdur, amma gələcəkdə təmir olunması nəzərdə tutulub”. E.Hadıyevin sözlərinə görə, ADSU-nun yataqxanası 320 nəfərlikdir. Burada həm yerli, həm də əcnəbi tələbələr qalırlar. Adətən əcnəbi tələbələr üstünlük təşkil edir. Yataqxana iki və üç nəfərlik otaqlardan ibarətdir. Bir otağın qiyməti 100 manatdır. İki nəfər qaldıqda hər biri 50, üç nəfər qaldıqda isə 34 manat ödəyirlər”.

### TƏLƏBƏLƏRİN TƏHLÜKƏSİZLİYİ DİQQƏT MƏRKƏZİNDƏ

Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nicat Abdullayevin verdiyi məlumata görə, universitetin böyük yataqxana kompleksi mövcuddur: “Onun əsas hissəsində məcburi köçkünlər məskunlaşıb, yalnız bir korpus əsaslı şəkildə təmir olunaraq tələbələrin istifadəsinə təqdim olunub. Burada təxminən 450 nəfərə yaxın tələbənin yerləşdirilməsi mümkündür. Həm oğlan, həm qız tələbələr, eləcə də əcnəbi tələbələr burada qala bilirlər. Yataqxanada qalma haqqı aylıq 50 manat təşkil edir. Bu vəsait təsərrüfat, kommunal, mühafizə və digər xərclərin qarşılanmasına sərf olunur. Həssas qruplara aid tələbələr – şəhid ailələrinin, müharibə veteranlarının övladları və digər imtiyazlı tələbələr ödənişdən azaddırlar”. N.Abdullayev bildirdi ki, yataqxanada yerləşmək üçün tələbələr rayon qeydiyyatında olmalı və universitetə ərizə ilə müraciət etməlidirlər. Müraciət edənlər Tələbə Həmkarlar İttifaqı Komitəsinə (THİK) ərizə təqdim edir və orderlə təmin olunurlar. Tələbələrin təhlükəsizliyi daim diqqət mərkəzindədir. Yataqxana 7/24 təhlükəsizlik kameraları ilə müşahidə olunur, giriş-çıxış müəyyən olunmuş qaydalar əsasında tənzimlənir. N.Abdullayev qeyd etdi ki, AzMİU-nun əsas hədəflərindən biri yataqxana kompleksini tam şəkildə əsaslı təmir edərək tələbələrin istifadəsinə verməkdir: “Hazırda məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıdışı davam edir. Bu prosesla paralel olaraq universitet Elm və Təhsil Nazirliyi ilə birlikdə yataqxana kompleksinin yenidən qurulması və müasir tələblərə uyğunlaşdırılması üçün maliyyə imkanlarının cəlb olunması üzərində çalışır”.



## YATAQXANADA PULSUZ QALMAQ İMKANI DA VAR

Sumqayıt Dövlət Universitetinin (SDU) mətbuat xidmətindən verilən məlumata görə, universitetin Tələbə evi var və yeni tədris ilinə tam hazır vəziyyətdədir: “Burada 124 oğlan və 124 qız olmaqla, ümumilikdə 248 nəfərlik yer mövcuddur. Bundan əlavə, 17 çarpayı olmaqla 7 qonaq otağı da fəaliyyət göstərir. Yataqxana tam təmir olunub və tələbələrin rahatlığı üçün hər cür şərait yaradılıb. Hər mərtəbədə mətbəx və məişət otaqları, ümumi istifadədə isə geniş yeməkxana, oxu zalı və camaşırxana mövcuddur. 500 baldan yuxarı nəticə göstərən tələbələrimiz həm 200 AZN xüsusi təqaüd alır, həm də yataqxanada pulsuz qalmaq imkanı əldə edirlər”.

Mingəçevir Dövlət Universitetindən (MDU) bildirildi ki, hazırda ali məktəbin yataqxanası yoxdur: “Kampusun içərisində yataqxana tikintisi gedir. Orada 600 tələbə - 300 qız, 300 oğlanın qalması nəzərdə tutulub. Bu, 2-3 ilə başa gələcək bir prosesdir”.

### MƏCBURİ KÖÇKÜN PROBLEMİ

Sorğumuz zamanı öyrəndik ki, bəzi ali məktəblərin yataqxanaları torpaqlarımız işğal olunandan sonra məcburi köçkünlərin ixtiyarına verilib. Hazırda onların doğma yurdlarına köçməsi tam reallaşmadığı üçün yataqxanalar boşaldılmayıb. Məsələn, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) yataqxanası bu vəziyyətdədir. “Universitetin yataqxanası yoxdur. Uzun illərdir ki, orada məcburi köçkünlər məskunlaşıb” – deyə ADMİU-dan bildirildi.

Azərbaycan Dövlət İqtisad Universitetindən (UNEC) bildirildi ki, təhsil ocağının beş yataqxanası var və onların hamısında məcburi köçkünlər məskunlaşıb: “Məcburi köçkünlər öz torpaqlarına qayıtdıqdan sonra yataqxanalar yenilənərək tələbələrin ixtiyarına verilə biləcək. Amma UNEC-in Zaqatalada aprel ayında açılışı keçirilən 155 nəfərlik yataqxanası var. O binanın 145 yeri tələbələr üçün nəzərdə tutulub, 10 yerdə isə xaricdən gələn müəllimlər qalır”.

Bakı Slavyan Universitetindən (BSU) bildirildi ki, ümumilikdə dörd yataqxanaları mövcuddur. Hazırda həmin yataqxanalarda məcburi köçkünlər məskunlaşıb və yalnız bir yataqxana qismən (2-ci və 4-cü mərtəbələri) BSU tələbələrinin istifadəsindədir. 2026-cı ilə qədər mövcud yataqxanaların əsaslı təmir olunması nəzərdə tutulub”.

# AVTOMOBİL SEVGİMİZ AZALMIR

**Artıq insanlar yalnız ehtiyac üçün deyil, həm də komfort, müstəqillik və sosial status üçün avtomobilə yönəlirlər. Maddi imkanları artan insanlar müasir, komfortlu və təhlükəsiz avtomobillərə üstünlük verirlər.**

**AVTOMOBİL İDXALI**
2025-ci il yanvar-iyun

Dəyəri
**960,709 mln $**

Sayı
**51 727 ədəd**





AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Bu ilin birinci yarısında Azərbaycan 960,709 milyon ABŞ dolları dəyərində 51 727 ədəd müxtəlif təyinatlı avtomobil idxal edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 23,3% çoxdur. Hazırda Bakıda avtomobil idarə etmək nə qədər çətin olsa da, avtomobil sevgimiz azalmır ki, azalmır. Yollardakı sıxlığa, parkinq qiymətlərinə baxmayaraq, avtomobilə maraq artan templə davam edir. Statistikadan görünür ki, Azərbaycana gətirilən avtomobillərin həm sayı artır, həm də dəyəri. Maraqlıdır, avtomobil sevgimizin kökündə nə dayanır?

### SÜRƏT, ZAMAN VƏ STATUS ARZUSU

Texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Fərhad Eyyubov "Kaspi" qəzetinə açıqlamasında bildirir ki, insanların avtomobilə olan marağının kökündə əsasən zaman qazanmaq arzusu dayanır: "Məsələyə bir qədər fəlsəfi yanaşsaq, görərik ki, bunun əsas səbəblərindən biri vaxt qazanmaq istəyidir. Müasir insan üçün vaxt ən dəyərli resurslardan biridir. Avtomobil isə bu zamanı idarə etməyin, ona nəzarət etməyin bir vasitəsi kimi çıxış edir. Bir yerdən digər yerə daha sürətli getmək, günün planına uyğun hərəkət etmək üçün fərdlər şəxsi nəqliyyatı seçirlər. Azərbaycanda avtomobilə maraq son illərin tendensiyası deyil. Təxminən 10-15 il əvvəl də ölkəyə böyük sayda nəqliyyat vasitələri idxal olunurdu. İnsanların maddi vəziyyəti nisbətən yaxşılaşıb, kredit və lizinq imkanları genişlənib. Eyni zamanda ölkədə yol infrastrukturu müasirləşib, bu da avtomobil sahibi olmağı daha mənalı və əlverişli edir. Artıq insanlar yalnız ehtiyac üçün deyil, həm də komfort, müstəqillik və sosial status üçün avtomobilə yönəlirlər".

Mütəxəssis deyir ki, maddi imkanları artan insanlar müasir, komfortlu və təhlükəsiz avtomobillərə üstünlük verirlər: "Bütün ölkəni şəxsi avtomobillə səyahət etmək, ailəvi istirahətlərə çıxmaq artıq bir çox insanlar üçün həm arzu, həm də reallıq halına gəlib. Bu, təkcə nəqliyyat vasitəsi seçimi deyil, həm də yaşam tərzinin göstəricisidir. Elə ailələr var ki, evlərində iki-üç avtomobil saxlayırlar. Onlardan biri gündəlik bazarlıq, digəri isə istirahət və uzun səfərlər üçün istifadə olunur. Maddi rifah artdıqca avtomobilə olan marağın da yüksəlməsi tamamilə təbiidir".



Fərhad Eyyubov

## "QADIN SÜRÜCÜLƏRİN SAYI ARTIB"

Həmsöhbətimiz vurğulayır ki, avtomobillərin sayının artmasının növbəti səbəbi cəmiyyətdə qadın sürücülərin sayının artmasıdır: "Əvvəllər qadınlar avtomobildən daha az istifadə edirdilərsə, son illərdə alınan avtomobillərin təxminən 30-40 faizi məhz qadın sürücülər tərəfindən idarə olunur. Bu isə avtomobilə olan marağın cins baxımından da genişlənməsinə səbəb olur".

### AVTOMOBİL BAZARINDA MÜASİRLİYƏ KEÇİD

Nəqliyyat eksperti düşünür ki, avtomobillərin dizaynı, rəng seçimi və texniki göstəriciləri müasirləşdiyi üçün bu, alıcıların marağını daha da artırır: "Hazırda Azərbaycanda qeydiyyatda olan nəqliyyat vasitələrinin sayı 1 milyon 750 minə yaxındır. Lakin bu avtomobillərin hamısı istismarda deyil. İnsanlar imkanları olduqca köhnə avtomobillərini satıb yenisini almağa çalışırlar. Ölkədə bu tendensiya getdikcə güclənir və avtomobil bazarında müasirliyə keçid davam edir".

Mütəxəssisə görə, burada əsas narahatedici məqam ölkədə köhnə avtomobillərin utilizasiyası məsələsidir: "Baxmayaraq ki, bu sahədə xüsusi proqram hazırlanıb, proses çox ləng və qeyri-effektiv gedir. Halbuki, avtomobillərin utilizasiyası təhlükəsizlik, ekologiya və səmərəlilik baxımından vacibdir. Bu proses sürətli icra olunmalıdır ki, biz komfortu zəif, təhlükəsizlik elementləri olmayan avtomobillərdən qurtulaq. Hər il Azərbaycana 100 minə yaxın avtomobil gətirilsə də, utilizasiyaya göndərilən maşınların sayı çox aşağıdır. Bu isə balanssızlıq yaradır. Bizdə tarazlıq pozulub. Ən ciddi nəticə tıxac probleminin kəskinləşməsidir. Çünki alınan avtomobillərin böyük əksəriyyəti paytaxt Bakıya yönəlir. Paradoks ondadır ki, insanlar avtomobil almaqla zaman qazanmaq istəyir, amma tıxaclarda o zamanı daha çox itirirlər".



Eyyub Əliyev

### "ALICILAR VƏ SATICILAR TƏLƏSİR"

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının sədri Eyyub Əliyev deyir ki, bu, müsbət və sevindirici haldır: "Statistik göstəricilər də təsdiqləyir ki, son illərdə on ildən artıq yaşı olan avtomobillərin idxalına tətbiq edilən məhdudiyyətlər və utilizasiya proqramının işə düşməsi nəticəsində daha yeni və keyfiyyətli avtomobillərin ölkəyə gətirilməsi prosesi güclənib. Bu, müsbət və sevindirici haldır, çünki həm ekoloji, həm təhlükəsizlik baxımından üstünlükləri olan nəqliyyat vasitələrinin payı artır. Eyni zamanda, 2026-cı ilin yanvarından elektrik və hibrid avtomobillərinə tətbiq edilən güzəştlərin müddətinin bitməsi ehtimalı da hazırkı avtomobil idxalının sürətlənməsinə səbəb olub. Şəxsi proqnozlarıma görə, elektrik avtomobillərinə güzəştlər davam edə bilər, lakin hibridlər üçün bu imkanların məhdudlaşdırılması gözlənilir. Bu səbəbdən, istər alıcılar, avtomobil satıcıları, istərsə də idxalçı şirkətlər yeni avtomobil gətirmək üçün tələsirlər".

### İNVESTİSİYALAR, YENİ TAKSİ PARKLARI...

E.Əliyev vurğulayır ki, avtomobil sayının artması təkcə fərdi şəxslərin marağı ilə bağlı deyil: "Ölkəmizin turizm potensialının artması, xidmət sektorunun genişlənməsi və yeni investisiya layihələrinin həyata keçirilməsi də bu artıma ciddi təsir göstərir. Son dövrlərdə avtomobil satışı ilə məşğul olan şirkətlərin öz parklarını genişləndirməsi, yeni taksi parklarının yaradılması ölkəyə gətirilən avtomobil sayının yüksəlməsində mühüm rol oynayıb".

# DƏHŞƏTLİ QƏZANIN YARATDIĞI SUALLAR

Körpülərdə hərəkətə nəzarət mexanizmi gücləndirilməlidir. İlk növbədə yük avtomobillərinin texniki vəziyyətinə diqqət artırılmalıdır. Körpülərdə sürət hədlərinin real vəziyyətə uyğunlaşdırılması, radar və müşahidə sistemlərinin tətbiqi, kənarlardakı qoruyucu sədlərin möhkəmləndirilməsi də vacibdir.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az





Fotolar: Əjdər İbrahimov/Global Photostock





Ötən həftə Biləcəri qəsəbəsində baş verən yol-nəqliyyat hadisəsi şok effekti yaratdı. Ağır tonnajlı "KamAZ" markalı avtomobilin körpüdən digər maşının üstünə aşması nəticəsində sürücü də daxil olmaqla üç nəfər həyatını itirdi. Bir necə nəfər isə ağır bədən xəsarəti aldı. Bir neçə ay öncə Heydər Əliyev prospektindəki Bağırov körpüsünün ətrafında "uçan taksi" hadisəsi yaddaşlardan silinməmiş, indi daha betəri - faciə ilə nəticələnən qəza adamlara göz dağı oldu.

"Tək bu hadisə deyil ki. O yolda bilirsiniz nə qədər maşınlar aşıb, nə qədər faciələr yaşanıb?"; "Səhər saat 10-da o yük maşınının şəhərdə nə işi vardı?"; "Kim zəmanət verir ki, Biləcəridəki hadisə sabah sənin, mənim başıma gəlməyəcək?"; "Əksər yük maşını sürücüləri maşını çox aqressiv idarə edirlər"; "Niyə o döngənin sərtliyi nəzərə alınıb radar quraşdırılmayıb?"- deyə sosial şəbəkələrdə yazılan çoxsaylı status və rəylər problemin əslində kompleks həllər tələb etdiyini göstərdi.

Həqiqətən də problem artıq tam ciddiliyi ilə həllini gözləyir. Tək hadisə baş verən ərazidə deyil, digər yerlərdəki körpülərdə də belə hadisələrin təkrarlanmaması üçün addımlar atılmalıdır. Hamını həyəcanlandıran suallara verilən cavablar isə göstərir ki, bu ağır qəzanın hansı səbəbdən baş verməsini uzun müddət araşdırmağa ehtiyac olacaq.

### HEÇ BİR QURUM MƏSULİYYƏTİ ÜZƏRİNƏ GÖTÜRMÜR

Daxili İşlər Nazirliyinin Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Ömər Xıdırov "qeyd etdiyiniz suallar NİİM-in səlahiyyətlərinə aid deyil", - deyə suallarımızı bir cümlə ilə cavablandırdı.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) da oxşar cavabı verdi: "Bizə aid olan məsələ deyil. Biz nəqliyyatı tənzimləyirik, körpülər bizim quruma aid deyil".



Ömər Xıdırov

## Qəza ilə bağlı cinayət işi başladılıb

Baş Dövlət Yol Polisi İdarəsindən sualımıza cavab olaraq bildirildi ki, qəzanın səbəblərinin müəyyənləşdirilməsi ilə bağlı ilə bağlı cinayət işi başladılıb, bütün zəruri ekspertizalar təyin olunub və istintaq tədbirləri davam etdirilir: "Binəqədi rayonu ərazisində baş vermiş ağır yol-nəqliyyat hadisəsi üç nəfərin həyatına son qoyub, bir neçə nəfər isə xəsarət alıb. İlkin araşdırmalara görə, yük avtomobili körpüdə idarəetməni itirərək aşıb və dayanmış minik avtomobilinin üzərinə düşüb". BDYPİ-dən bildirildi ki, belə halların qarşısını almaq üçün sürücülər hər zaman daha diqqətli olmalı, xüsusilə sərt döngələrdə, enişli və körpü sahələrində sürəti azaltmalı, idarəetməyə tam nəzarəti təmin etməlidirlər: "Eyni zamanda, yola çıxmazdan əvvəl nəqliyyat vasitəsinin texniki sazlığının yoxlanılması həyati əhəmiyyət daşıyır. Unutmayaq ki, yolda hər kəsin təhlükəsizliyi bir-birimizin məsuliyyətli davranışından asılıdır. Hər qaydaya əməl etmək - həm öz həyatımızı, həm də digər insanların həyatını qorumağın ən etibarlı yoludur".

### "NƏZARƏT TƏDBİRLƏRİ GÜCLƏNDİRİLMƏLİDİR"

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev hesab edir ki, belə qəzaların qarşısının alınması üçün nəzarət tədbirləri gücləndirilməlidir: "Körpülərdə baş verən qəzalar bir daha göstərdi ki, yol hərəkətinin təhlükəsizliyi daim gündəmdə olmalı, nəzarət mexanizmi gücləndirilməlidir. Hesab edirəm ki, ən əsas məsələ sürücülərin məsuliyyətidir. Dövlət qurumlarının koordinasiyalı fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir. Körpülərə nəzarət və tənzimləmə məsələsinə ayrı-ayrılıqda yanaşmaq lazımdır. İlk növbədə yük avtomobillərinin texniki vəziyyətinə nəzarət gücləndirilməlidir. Şirkətlərə məxsus avtomobillər şirkətlərin özləri tərəfindən yoxlanılmalı, həm texnikaya, həm sürücülərin özlərinə güclü nəzarət olmalıdır. Qanunvericiliyin tələbinə uyğun olaraq texniki baxış ilk növbədə sahibkarın öz marağında olmalı, formal xarakter daşımamalıdır. Real təhlükəsizlik göstəriciləri əsas götürülməlidir". Millət vəkilinin fikrincə, körpülərdə sürət hədlərinin real vəziyyətə uyğunlaşdırılması, radar və müşahidə sistemlərinin tətbiqi, infrastruktur baxımından körpülərin kənarında qoruyucu sədlərin möhkəmləndirilməsi vacibdir, lakin mühəndislik yanaşması, hüquqi mexanizmlər, nəzarət tədbirləri - hamısı bir yerdə olmalıdır. A.Nağıyev sürücülük məsuliyyətini də önə çəkdi: "Əvvəllər böyük yük maşınlarını təcrübəli sürücülərə həvalə edirdilər. Hazırda isə görürük ki, dünən sürücülük hüququ əldə edən şəxs bu gün ağır tonnajlı avtomobili idarə edir. Öncə sürücülərin özlərini məsuliyyətə çağırmaq lazımdır. Hadisədən nəticə çıxarmalı, ortaya təkliflər qoyulmalıdır. Hesab edirəm ki, bu istiqamətdə profilaktik addımlar atılacaq. Təhlükəsizlik məsələsində heç vaxt güzəştə getmək olmaz".



Arzu Nağıyev

## Ekspert körpülərdə sürət həddinin aşağı salınmasını təklif edir

Nəqliyyat məsələləri üzrə ekspert Yasin Mustafayev deyir ki, qəza baş verən ərazidə əvvəllər də belə hadisələr olub: "Bu yerdə çox qəza baş verir. Ümumiyyətlə, elə döngələr var ki, avtomobil oradan hərəkət edərkən nəqliyyat vasitəsi yoldan aşmağa doğru meyillənir. Bu, fizikanın qanunudur. Mərkəzdənqaçma qüvvəsi yaranırsa, müəyyən tədbirlər görərək onun qarşısını almaq lazımdır. Görüləcək əsas tədbirlərdən biri sürət həddini aşağı salmaqdır". Ekspertin sözlərinə görə, qəzanın baş verdiyi yer körpü deyil, yoldur: "Geridə tunel, irəlidə körpü var. Orada xəbərdarlıq nişanları, yerdə üfüqi nişanlama, maneə tətbiq edilə bilər. Yollarımızda nişanlar azdır. Bəzən kilometrlərlə gedirsən, yol nişanlarına rast gəlmirsən. Nişanlar qəzaların qarşısını almağa kömək edir".



Yasin Mustafayev

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# BOŞANMIRAM, ƏL ÇƏKİN!



**Son dövrlərdə boşanma ərəfəsində olan cütlüklərin psixoloqa müraciəti artıb və bu müraciətlər nəticəsində onların təxminən iyirmi faizi boşanmaq fikrindən daşınıb. Ekspertlər qeyd edirlər ki, bu, çox ciddi və ümidverici göstəricidir.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-iyul aylarında 27 min 509 nikah və 12 min 146 boşanma halları qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə nikahların sayı 4,5-dən 4,6-ya qədər artıb, boşanmaların sayı isə 2,1-dən 2-yə düşüb. Ümumiyyətlə, boşanmaların kökündə nə dayanır? Hansı faktorlar bu azalmaya təsir edir?

### "AİLƏ MODELİ İLƏ BAĞLI TƏSƏVVÜRLƏR YENİLƏNİB"

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin aparıcı məsləhətçisi Ləman Mahmudova "Kaspi" qəzetinə açıqlamasında bildirir ki, bu gün cəmiyyətlərin bir-birinə inteqrasiyası fonunda ideal ailə modeli ilə bağlı təsəvvürlər yenilənib: "Artıq ailəyə yanaşmanın daha müstəqil aspektdə varlığını müşahidə edirik. Təbiidir ki, ailə ən azı iki insanın birliyi olduğundan, burada fərqli baxışların mövcudluğu labüddür. Çünki həyatın və birgəyaşayışın bütün sferalarının məcmusunda tam eyni yanaşma və baxışlar praktiki mümkün deyil. Bu baxış və yanaşmalardakı fərqlər problemlərin yaranmasına səbəb olur. Başqa sözlə desək, belə intensiv qarşılıqlı münasibətlər zəminində mübahisələr, münaqişələr qaçılmazdır".

### STRESƏ DAYANIQLILIQ, EMOSİONAL SABİTLİK, SOSİAL ŞƏBƏKƏDƏN ASILILIQ

Komitə rəsmisi bildirir ki, ailədə ünsiyyət problemləri qaçılmaz olsa da, bunları sağlam və konstruktiv şəkildə həll etmək mümkündür: "Aktiv dinləmə, empatiya, hisslərin açıq ifadəsi və mütəmadi müzakirələr ailədə möhkəm bağların və emosional yaxınlığın əsasını təşkil edir. Bu gün ailə institutuna təsir edən problemlərin əsasında insanların ailə institutuna münasibətindəki dəyişən yanaşması, sosial-mənəvi məsuliyyətin aşağı olması dayanır. Cəmiyyət həyatında baş verən yeniliklər bütün dövrlərdə olduğu kimi müasir dövrdə də ailənin məqsədlərinə, yaşam tərzinə, ümumilikdə birgəyaşayış prinsiplərinə təsirini göstərir. Müasir ailə modelində stressə dayanıqlılıq, tərəflər arası emosional sabitlik və problemin həll etmə bacarığının getdikcə azalması, sosial şəbəkələrdən asılılıq, ailədə asudə vaxtın düzgün təşkil olunmaması kimi bir çox səbəblər ailədaxili problemlərə və ailə institutunun zəifləməsinə gətirib çıxardan əsas amillərdəndir".



Ləman Mahmudova

### MEDİADA İŞIQLANDIRILAN AİLƏ MODELİ

Həmsöhbətimiz deyir ki, bu gün informasiya texnologiyalarının inkişafı, internetin və virtual ünsiyyətin insan həyatına daxil olması gənclər arasında intellektual səviyyənin artmasına, onların şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərsə də, bəzən sadalanan amillər ailədə ənənəvi bağlılığın zəifləməsinə səbəb olur: "Düzgün ailə münasibətləri, sağlam ailə modeli barədə təsəvvürlərin yaranmasında kütləvi informasiya vasitələrinin rolu danılmazdır. Ailədaxili münasibətlərdə boşluqların aradan qaldırılması, bir çox neqativ halların profilaktikası, ailə üzvlərinin sağlamlığının qorunması üçün ailələrin maarifləndirilməsi, mədəni-estetik inkişafı və onlar arasında müsbət stereotiplərin təbliği önəmlidir. Bu gün mediada işıqlandırılan ailə modeli geniş auditoriyanın təsəvvüründə ailə ilə bağlı müsbət və mənfi obrazlar yaradaraq, cəmiyyətdə müəyyən həyati situasiyalarda davranış modelləri formalaşdırır".

## MAARİFLƏNDİRİCİ LAYİHƏLƏR, SORĞULAR, TƏHLİLLƏR...

Boşanmaların azalmasına gəldikdə isə, Mahmudova bildirir ki, statistik göstəricilər daim yenilənir və zamanla dəyişir. Hazırda nikah və ya boşanma hallarının artması və ya azalması barədə fikir söyləmək tezdir: "Lakin ailə dəyərlərinin qorunması, ailə institutunun möhkəmləndirilməsi istiqamətində tədbirlər davam etdirilir və maarifləndirici işlərin gücləndirilməsinə xüsusi önəm verilir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ailə institutunun qorunması və möhkəmləndirilməsi istiqamətində çoxşaxəli və genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu fəaliyyətlərə valideyn-övlad münasibətlərinin sağlam şəkildə inkişafı, ailədaxili sosial-mənəvi məsuliyyətin artırılması, ailədə sağlam psixoloji mühitin təmin olunması və normativ-hüquqi bazanın təkmilləşdirilməsi daxildir. Eyni zamanda, müasir dövrün neqativ tendensiyalarının qarşısının alınması məqsədilə maarifləndirici layihələr reallaşdırılır, sorğular, araşdırmalar və təhlillər aparılır. Əldə olunan nəticələr əsasında isə məqsədyönlü addımlar atılır. İctimai maarifləndirmə istiqamətində həyata keçirilən tədbirlər sırasında hazırlanan sosial çarxlar və nəşr olunan maarifləndirici vəsaitlər xüsusi əhəmiyyət kəsb edir".



## "İYİRMİ FAİZ AİLƏ BOŞANMAQ FİKRİNDƏN DAŞINIB"

Sosioloq Nailə İsmayılova düşünür ki, boşanmaların sayının azalması qanunvericilikdə edilən dəyişikliklərlə bağlıdır: "Ailə Məcəlləsinə edilən dəyişikliklər artıq cəmiyyətə təsir etməyə başlayıb. Eyni zamanda nikah yaşının qanunla aşağı salınmasına verilən imkanın aradan qaldırılması da bu prosesə təsir edib. Erkən nikahlarla daha ciddi mübarizə, Cinayət və İnzibati Xətalar məcəllələrinə əlavə olunan müddəalar, eləcə də yaxın qohumlar arasında nikahın qadağan olunması bu göstəricilərə təsir edən əsas səbəblərdir".

Sosioloqun sözlərinə görə, hüquqi dəyişikliklər yalnız erkən və riskli nikahların qarşısını almaqla kifayətlənmir, eyni zamanda artıq ailə quran insanların da evliliyə məsuliyyətli yanaşmalarına səbəb olur: "Bu dəyişikliklər və ümumi ictimai maarifləndirmə tendensiyası ailə qurmaq istəyənlərin daha dərindən düşünərək münasibətə daxil olmalarına şərait yaradır. Bundan əlavə, son dövrlərdə boşanma ərəfəsində olan cütlüklərin psixoloqa müraciəti artıb və bu müraciətlər nəticəsində onların təxminən iyirmi faizi boşanmaq fikrindən daşınıb. Bu, çox ciddi və ümidverici göstəricidir".

### SOSİAL ŞƏBƏKƏLƏRƏ NƏZARƏT

Mütəxəssis vurğulayır ki, boşanmaların azalmasında sosial şəbəkələrə nəzarət və maarifləndirmə tədbirləri mühüm rol oynayır: "Boşanma səbəbləri arasında sosial şəbəkələrin təsiri hər zaman vurğulansa da, son dövrlərdə aparılan müşahidələr göstərir ki, bu platformalara nəzarətin artması boşanmalara müəyyən qədər təsir edib. Bu tədbirlər yalnız boşanmaların deyil, qohum evliliklərinin, erkən nikahların və ailədaxili məişət zorakılığının qarşısının alınmasında da müsbət rol oynayıb".



Nailə İsmayılova

# ORTA DƏHLİZƏ ARTAN TƏLƏBAT

**Geosiyasi münaqişələr alternativ ticarət marşrutlarının, o cümlədən Mərkəzi Asiya və Qafqazı birləşdirən Orta Dəhlizin inkişafını daha da zəruri edib. Marşrut üzrə tranzit həcmlərinin və investisiyaların artımı sürətli templə baş verir. Bu, ilk növbədə, Qazaxıstan, Azərbaycan və Gürcüstana fayda gətirir.**




Azərbaycanın da iştirakçısı olduğu alternativ tranzit dəhlizlərin inkişafı və ötürücülük qabiliyyətinin genişləndirilməsi diqqət mərkəzindədir. Xüsusilə də Orta Dəhliz ilə bağlı müxtəlif proqnozlar irəli sürülür. Geosiyasi münaqişələr alternativ ticarət marşrutlarının, o cümlədən Mərkəzi Asiya və Qafqazı birləşdirən Orta Dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, TBNM) inkişafını daha da zəruri edib. "Report" "Moody`s" beynəlxalq reytinq agentliyinə istinadən xəbər verir ki, bu marşrut üzrə tranzit həcmlərinin və investisiyaların artımı sürətli templə baş verir. Bu, ilk növbədə, Qazaxıstan (Baa1, proqnoz - sabit), Azərbaycan (Baa3, proqnoz - müsbət) və Gürcüstana (Ba2, proqnoz - mənfi) fayda gətirir. Agentliyin qiymətləndirmələrinə görə, Orta Dəhlizin inkişafı region ölkələrinin suveren kredit keyfiyyətinin güclənməsinə töhfə verir. Nəqliyyat və logistika sektorunun sürətli inkişafı iqtisadi perspektivləri yaxşılaşdırır və xüsusilə karbohidrogen ixracından asılı olan iqtisadiyyatların şaxələndirilməsinə müsbət təsir göstərir. Xarici investorların marağının artması hökumətləri institutları beynəlxalq standartlara uyğunlaşdırmağa təşviq edir.

**BANK SEKTORU DA BU PROSESDƏN FAYDALANIR**

"Moody`s" qeyd edir ki, dövlət tərəfindən infrastruktura yönəldilən vəsait büdcə xərclərini artırsa da, bunlar fiskal məkanın mövcudluğu və güzəştli maliyyəyə çıxış imkanı ilə kompensasiya olunur. Hesabata əsasən, region ölkələrinin bank sektoru da bu prosesdən faydalanır, lakin bu, əsasən dolayı yolla baş verir. "Qısamüddətli maliyyələşdirmədən yüksək asılılıq və kapitalın yüksək dəyəri bankların infrastrukturun maliyyələşdirilməsində birbaşa iştirakını məhdudlaşdırır. Bununla belə, onlar subpodratçıların və əlaqəli sahələrin kreditləşdirilməsi yolu ilə fayda əldə edirlər", - analitiklər qeyd edirlər. Onların fikrincə, korporativ sektor və KOB-lar da iqtisadi fəallığın artmasından faydalanır. Tranzit axınlarının və infrastruktur investisiyalarının artması nəqliyyat, logistika və tikinti sahələrində şirkətlərə dəstək olmaqla yanaşı, həm də ixracatçıları yeni bazarlara çıxmasına şərait yaradır.

## Çatışmazlıqlar da var

"Moody`s" Qazaxıstanın milli dəmiryol operatoru olan "Kazakhstan Temir Zholy" SC-nin roluna xüsusi diqqət yetirir. Şirkət strateji mövqeyi sayəsində tranzit artımının əsas benefisiarıdır və güzəştli şərtlərlə maliyyələşdirmə, tarif tənzimlənməsi kimi dövlət tədbirləri ilə dəstəklənən irimiqyaslı infrastruktur proqramı həyata keçirir.

Bununla yanaşı, agentlik Orta Dəhlizin tam potensialının üzə çıxarılmasını məhdudlaşdıran çatışmazlıqların olduğunu da vurğulayır. Bu çatışmazlıqlara dəmir yollarının ötürmə qabiliyyətinin qənaətbəxş olmaması, köhnəlmiş logistika, zəif liman infrastrukturu, həmçinin gömrük prosedurlarında və normativ standartlarda siyasətin koordinasiyasını çətinləşdirən fərqlər aiddir.




# SOCAR "Gastech 2025" sərgisində təmsil olunub

Sentyabrın 9-12-də İtaliyanın Milan şəhərində keçirilən "Gastech 2025" sərgisində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) innovativ stendi ilə təmsil olunub. Bu barədə "Report" SOCAR-a istinadən xəbər verir. Bildirilib ki, SOCAR-ın pavilyonunda Cənub Qaz Dəhlizi, "Şahdəniz" qaz-kondensat yatağı, Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) boru kəmərləri, "Abşeron" İlkin Hasilat Sxemi platforması və "SOCAR Karbamid" zavodu kimi strateji layihələri əks etdirən video materiallar nümayiş olunub. Bununla yanaşı, təbii qazın hasilatı, emalı, nəqli, saxlanması və qaz-kimya sənayesi sahələrini əhatə edən posterlər və infoqrafikalar sərgi iştirakçılarına təqdim olunub.




# "Kaspi"nin əməkdaşı münsiflər heyətində

"Global Media Group"a daxil olan "Kaspi" qəzetinin əməkdaşı Təranə Məhərrəmova "Turizm Mətbuat Mükafatı 2025"in münsiflər heyətinə üzv seçilib. Beynəlxalq Turizm Filmləri Festivalı Komitəsinin keçirdiyi Turizm Filmləri Festivalı çərçivəsində bu il 36 ölkədən 70-dən çox səyahət jurnalisti "Ən təsirli turizm videofilmi"ni seçmək üçün bir araya gələcək. Müsabiqənin birinci turu sentyabrın 10-30-u, ikinci turu oktyabrın 3-10-nu əhatə edəcək. Mükafatlandırma mərasimi isə dekabr ayı üçün nəzərdə tutulub.

Qeyd edək ki, bu il münsiflər ümumilikdə 23 ölkədən seçilən 56 tanıtım videosunu qiymətləndirəcək.

Xatırladaq ki, keçən il mükafatı əfsanəvi tennisçi Rocer Federer və komediya ustası Trevor Noahın iştirakı ilə çəkilən, İsveçrə turizminin təbliğinə həsr olunan "Ömrün səyahəti" videosu qazanıb.

# "Nar" ilin ən uğurlu abituriyentlərini mükafatlandırdı

Ölkənin sərfəli mobil operatoru mövqeyini qoruyan "Nar" uzunmüddətli sosial layihələrə dəstəyini davam etdirir. Belə ki, mobil operator 2024-2025-ci tədris ilində ali məktəblərə qəbul imtahanlarında ən yüksək nəticə göstərən on abituriyenti xüsusi hədiyyələrlə təltif edib. Modern.az İnformasiya Agentliyinin dəstəyi ilə keçirilən bu layihə çərçivəsində tələbə adını qazananlara operatordan qızıl nömrə, 700 AZN balans və müasir smartfonlar hədiyyə edilib.



Mükafatlandırma mərasimində tanınmış dövlət, ictimai-siyasi xadimlər və media nümayəndələri iştirak edərək ilin ən uğurlu abituriyentlərini təbrik ediblər. Tədbirdə "Ümid var" İnklüziv Yaradıcılıq Birliyi və "Azərbaycan Uşaqları" İctimai Birliyinin üzvləri musiqi və rəqs ifaları ilə çıxış ediblər. Bu performans, eləcə də "Nar"ın sosial layihələrində inklüzivliyə verdiyi xüsusi önəm tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

"Nar"ın baş icraçı direktoru Qunnar Panke tədbirdə çıxış edərək gəncləri təbrik edib, onlara gələcəkdə uğurlar arzulayıb: "Bu nailiyyətiniz yalnız universitet qapılarını deyil, yeni imkanları və düşüncə üfüqlərinizi də açır. "Nar" olaraq, biz inanırıq ki, təhsilə dəstək ölkənin gələcəyinə edilən ən dəyərli investisiyadır".

"Nar"ın 10 ilə yaxındır, ənənəvi olaraq, davam etdirdiyi bu təşəbbüs mobil operatorun təhsilə verdiyi önəmini bir daha sübut edir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur.

Üç əsrin qəzeti Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1888
Tiraj: 2650
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# VƏTƏNDAŞ DA QAZANMAQ İSTƏYİR, ŞİRKƏT DƏ



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Son illərdə Bakıda köhnə yaşayış binalarının sökülməsi prosesi geniş vüsət alıb. Bu proses tək şəhərin simasının yenilənməsi baxımından deyil, həm də sosial və hüquqi müstəvidə müxtəlif müzakirələrə səbəb olur. Əsas narazılıq isə söküntü zamanı sakinlərə ödənilən kompensasiyalarla bağlıdır. Mütəmadi olaraq köhnə mənzillərindən çıxarılan sakinlərlə tikinti şirkətləri arasında kompensasiya məbləği ilə bağlı ciddi fikir ayrılıqları yaranır. Bəs bu sahədə narazılıqları minimuma endirmək, prosesə şəffaflıq və ədalət gətirmək üçün hansı sistemli addımlar atıla bilər?

**VƏTƏNDAŞ NARAZI QALARSA...**

Əmlak və inşaat məsələləri üzrə ekspert Elnur Azadovun sözlərinə görə, bu sahədə qiymətləndiricilər olmalıdır: "Qiymətləndirmə haqqında müvafiq qanunvericilik var. Dövlət sifarişi olan yerlərdə bu proses həyata keçirilir. Müstəqil qiymətləndiricilər cəlb edilir, ərazi qiymətləndirilir, kompensasiya məbləği təyin olunur. Özəl şirkətlər əsasən vəsaitə qənaət edirlər. Yaxşı olardı ki, hər bir əmlakın satın alınmasında qiymətləndirmə həyata keçirilsin. Vətəndaş narazı qalarsa, digər şirkətlərə müraciət etsin. Həm vətəndaşlar, həm də tikinti şirkəti bunda maraqlı olmalıdır".

E.Azadov bildirdi ki, əvvəl bu məsələdə hər rayonun rəhbərliyi sərəncamı özü verirdi. İcra Hakimiyyəti vətəndaşla şirkət arasında tənzimləyici idi. Bu, sonradan ləğv edildi. Artıq tənzimləyici mexanizm mövcud deyil: "Qanun deyir ki, vətəndaşı razı salmalısan. Razılaşma olmadıqda, məhkəməyə müraciət edilir".





**Söküntü işləri zamanı köhnə mənzil sahibləri və tikinti şirkətləri əksər hallarda razılığa gələ bilmirlər. Ekspertlərin rəyləri bu məsələdə heç də birmənalı deyil. Bir qisim vətəndaşı, digər qisim isə tikinti şirkətlərini haqlı sayır.**






Elnur Azadov

## "ƏN AZI ALTI AY ÖNCƏDƏN YAZILI BİLDİRİŞ GƏLMƏLİDİR"

Elnur Azadovun sözlərinə görə, bəzən olur ki, vətəndaş ödənilən məbləğə eyni ərazidən əmlak ala bilmir: "Problemlər buradan qaynaqlanır. Çox az hallarda vətəndaşlar sui-istifadə hallarına yol verirlər. Bu zaman məhkəmə tikinti şirkətinin xeyrinə qərar qəbul edir. Amma tikinti şirkətləri qanunu daha çox pozurlar. Kim köçmək istəmir, onları narahat etməyə başlayırlar. Bu hallar daha çox fərdi yaşayış evlərinin söküntüsü zamanı baş verir. Qanunsuz tikili olanda vətəndaşlar daha çox təzyiq altında qalırlar".

Ekspert bildirir ki, vətəndaşlara evləri sökülməzdən ən azı altay ay öncə yazılı bildiriş gəlməlidir. Bütün danışıqlar yazılı şəkildə aparılmalıdır: "Yaxşı olar ki, prosesə hüquqşünas cəlb etsinlər. Şirkətlə heç bir şifahi danışıq aparmasınlar".

**"QİYMƏTLƏNDİRİCİLƏRİN İŞTİRAKI RƏSMİLƏŞDİRİLMƏLİDİR"**

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc da deyir ki, dövlət sifarişi olduqda, tenderlə qalib gələn qiymətləndirmə şirkəti bir kvadratmetrin bazar dəyərini müəyyən edir: "Vətəndaşın əmlakının sahəsinə uyğun kompensasiya ödənilir. Əgər tikinti ilə məşğul olan sahibkar insaflıdırsa, heç bir problem baş vermir. Əks halda vətəndaş problemlə üzləşir. Tələb qoyulmalıdır ki, sövdələşmə sahibkarla vətəndaş arasında olduqda belə, kompensasiya məbləği qiymətləndirici şirkət tərəfindən təyin edilməlidir".

V.Orucun fikrincə, hər bir halda qanun vətəndaşın rahatlığını üstün tutmalıdır: "Bəzən vətəndaşın mənzili kiçik olduqda, təklif olunan kompensasiya ilə ev ala bilmir. Vətəndaşa yaşayış imkanları yaradılmalıdır".



Vüqar Oruc

## "HEÇ KİM MÜLKİYYƏT HÜQUQUNDAN MƏHRUM EDİLƏ BİLMƏZ"

Əmlak məsələləri üzrə ekspert Firdovsi Xəlilov isə düşünür ki, bəzi hallarda vətəndaşlar yaranan imkandan sui-istifadə edirlər: "Bizdə əmlakın toxunulmazlığı əsas götürülür. Bu zaman əmlak sahibi istədiyi məbləği təyin edir. Qanunvericilik də vətəndaşın iddiası yönündə çıxış edir. Sahibkar bütün mənzil sahibləri ilə razılığa gələ bilir. Bir neçə nəfər qeyri-real tələb irəli sürür. Beləliklə, inşaat uzanır, digər evi sökülən vətəndaşlar uzun müddət kirayələrdə qalmalı olurlar".

F.Xəlilovun fikrincə, vətəndaşla şirkət arasındakı razılaşma qanuniləşməlidir: "Hazırda tikinti şirkətləri sakinlərə təklif edirlər ki, mənzilin sahəsi nə qədərdirsə, 20 faiz artıq mənzillə təmin edirik. Yaxud, bazar qiyməti ilə kompensasiya məbləği təklif olunur. Bu zaman vətəndaşlar narazılıq edirlər. O səbəbdən bu addım qanuniləşməlidir. Vətəndaşın evi necə hesablanıbsa, həmin ərazidə 20 faiz artıq sahə verilməklə, yeni mənzillə təmin olunmalıdır. Bu, məcburi həyata keçirilməlidir. Əgər əksər vətəndaşla razılıq əldə edilirsə, bir neçə şəxs etiraz edirsə, məcburi yol tətbiq edilməlidir".

**BƏS QANUN NƏ DEYİR?**

Hüquqşünas Ceyhun Cəfərli bildirdi ki, əmlak vətəndaşın mülkiyyətidir. Mülkiyyət də toxunulmazdır. Heç kim mülkiyyət hüququndan məhrum edilə bilməz: "Əmlak yalnız dövlət ehtiyacları üçün məcburi geri alına bilər. Bu zaman əmlakın bazar dəyəri müəyyənləşdirilərək qabaqcadan ödənilməklə mülkiyyət hüququna xitam verilir. Qeyri-dövlət ehtiyacları üçün məcburi satınalma nəzərdə tutulmayıb. Söküntülər də bu kateqoriyaya daxildir. Qanunvericiliyə görə, vətəndaşdan əmlakı məcburi alına bilməz. Yalnız qarşılıqlı razılıq olmalıdır. Məcburiyyət olmadığı üçün vətəndaş istədiyi qiyməti təyin edir. Vətəndaş görür ki, tənzimləmə yoxdur, ümid edir ki, daha çox qazana bilər".



Firdovsi Xəlilov

Hüquqşünasın fikrincə, bu məsələ ilə bağlı qanunvericilikdəki boşluqlar aradan qalxmalıdır: "Dövlət bu məsələləri tənzimləməlidir".

# EV TELEFONLARI TARİX OLUR?




Son on ildə Azərbaycanda stasionar telefonlardan istifadədə nəzərəçarpan azalma müşahidə edilir. Bəzi insanlar üçün stasionar telefon artıq sosial simvol və nostalji element kimi qəbul olunur.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

“Elə bilirəm evdə telefon olmayanda ev tam olmur”. Bu cümləyə sosial şəbəkədə rast gəlmişdim. Doğrudan da, bir dövrün insanları üçün ev telefonu sadəcə rabitə vasitəsi deyil, evin bir üzvü idi. Hətta evin ən dəyərli əşyalarından idi. Əksəriyyətinin evində dəhlizdəki örtüklü balaca masanın üzərində dayanardı. Bəzən uzun-uzadı danışıqlarla, bəzən də bir zənglə sevindirərdi. Amma ev telefonları da zamanla dəyişdi, inkişaf yolu keçdi. Əvvəlcə fırlanan nömrə diski ilə evlərimizə təşrif buyurdu. Onun səsi hələ də o dövrün insanlarının qulaqlarındadır. Sonra düyməli modellər, bir az da inkişaf edib gələn zəngdə nömrəni göstərənlər, ardınca simsiz, otaqlar arasında daşınan telefonlar gündəmə gəldi. İndi isə “səssiz”dir... Demək olar ki, heç işlənməyən, amma yenə də evin bir küncündə yerini qoruyan...

“Ev telefonu ilə danışmaq üçün çox darıxmışam. Telefonun yanında bir də telefon kitabçamız vardı. Hər kəsin adı və qarşısında nömrəsi olurdu. İndi o telefonla danışmasam da, onu ləğv etməyə qıymıram. Yanında kitabçası ilə səssiz, sakit evimin bir küncündə dayanır”.

Bu fikirlər ev telefonundan imtina etməyə qıymayan Gülşənə məxsusdur. Ülkər də Gülşən kimi ev telefonundan istifadə etməsə də, onu ləğv etməyə qıymayan istifadəçilərdəndir: “İllərdir o telefonla heç kimlə danışmıram. Zəng də gəlmir, səsini belə unutmuşam. Hər ay boş-boşuna aylığını ödəyirəm, amma ləğv etməyə əlim gəlmir. Deyirəm, bəlkə nə vaxtsa lazım olar?!”

### İLK SEVGİLƏR, TƏSADÜFİ ZƏNGLƏR, UZUN-UZADI SÖHBƏTLƏR

Təkcə Gülşən və Ülkər deyil, bir çox insan üçün ev telefonu artıq istifadə olunmayan, amma imtina edilə bilinməyən bir əşya kimi evin küncündə, kimisinin də şkafında qalıb. Emosional bağ, keçmişin xatirələri, bir zamanlar onun vasitəsilə alınan vacib zənglər, danışılan söhbətlər bu cihazı evdən tam çıxarmağa imkan vermir. Hər nə qədər texnologiya dəyişsə də, bəzən insanlar bəzi əşyaları yalnız funksiyasına görə deyil, simvolik mənasına görə də saxlayırlar. Bir çoxumuz üçün ev telefonu dedikdə uşaqlığımız, ailəvi söhbətlər, ilk sevgilər, təsadüfi zənglər və ya gözlənilməz xəbərdarlıqlar yada düşür. Texnologiyanın sürətli inkişafı və mobil rabitənin genişlənməsi nəticəsində stasionar telefonlar həyatımızda get-gedə kölgədə qalan bir simvola çevrilib.

### EV TELEFONU ÇƏKDİRMƏK NEÇƏYƏDİR?

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (RİNN) Kollegiyasının qərarına əsasən, hazırda ev telefonu çəkdirmək 30 manata başa gəlir. Bu tarifə telefon nömrəsinin verilməsi, habelə 100 metr məsafəyədək telekommunikasiya şəbəkəsinə qoşulma (yenidən qoşulma) ilə bağlı bütün xərclər daxildir. Aylıq abunə haqqı isə əhali üçün 3,5 manat, qeyri-əhali üçün 7 manat təsdiq edilib.

### “213 MİN 731 NƏFƏR STASİONAR TELEFONLARDAN İMTİNA EDİB”

Maraqlıdır, hazırda Azərbaycanda stasionar telefonların sayı nə qədərdir və daha çox hansı bölgədə istifadə olunur? Bu suallarla Dövlət Statistika Komitəsinə müraciət etdik.

Komitədən “Kaspi” qəzetinə verilən məlumata görə, 2023-cü ildə mənzillərdə olan sabit şəbəkə telefonlarının sayı 1 milyon 308 min 965, 2024-cü ildə isə 1 milyon 095 min 234 olub. Bir il ərzində 213 min 731 nəfər stasionar telefonlardan imtina edib. 1990-cı ildən 2014-cü ilə qədər isə bu say artan xətlə davam edib.

### ƏN ÇOX EV TELEFONLARI HANSI BÖLGƏDƏDİR?

2024-cü ilin statistikasına əsasən, Bakı şəhərində 493 min 733, Naxçıvanda 64 min 634, Abşeron-Xızı iqtisadi rayonunda 42 min 621, Dağlıq Şirvan iqtisadi rayonunda 42 min 151, Gəncə-Daşkəsən iqtisadi rayonunda 82 min 003, Qarabağ iqtisadi rayonunda 26 min 122, Qazax-Tovuz iqtisadi rayonunda 28 min 523, Quba-Xaçmaz iqtisadi rayonunda 62 min 168, Lənkəran-Astara iqtisadi rayonu 50 min 104, Mərkəzi Aran iqtisadi rayonunda 44 min 245, Mil-Muğan iqtisadi rayonunda 32 min 151, Şəki-Zaqatala iqtisadi rayonunda 104 min 284, Şərqi Zəngəzur iqtisadi rayonu 1146, Şirvan-Salyan iqtisadi rayonunda isə 21 min 349 sabit şəbəkə telefonları var. Hələlik Qarabağ bölgəsində məskunlaşma tam həyata keçirilmədiyindən, stasionar telefonların sayı statistikada az görünür. Qarabağdan əlavə, 2024-cü ildə sabit şəbəkə telefonlarının ən az olduğu rayonlar sırasında Şəmkir (651 ədəd) və Ağcabədi (646 ədəd) yer alır.



## “Gənc nəsil stasionar telefonlardan istifadə etmir”

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov deyir ki, xüsusilə gənc nəsil və texnologiyadan aktiv istifadə edən şəhər sakinləri arasında stasionar telefonlara ehtiyac minimuma enib: “Son on ildə Azərbaycanda stasionar telefonlardan istifadədə nəzərəçarpan azalma müşahidə olunur. Bu prosesin əsas səbəbi mobil rabitənin, internet üzərindən səsli və video zəng xidmətlərinin (VoIP, messencer tətbiqləri və s.) sürətli inkişafıdır”.

Onun sözlərinə görə, stasionar telefonlardan ən çox yaşlı əhali, kənd və qəsəbə sakinləri, həmçinin bəzi dövlət qurumları və müəssisələr istifadə edir: “Bununla belə, bəzi sosial və yaş qruplarında stasionar telefon istifadəsi hələ də qalmaqdadır. Səbəblər arasında texniki sabitlik, mobil əlaqənin zəif olduğu ərazilərdə rabitənin təminatı, uzun illərin vərdişləri və müəyyən hallarda daha ucuz tarif imkanları var. Abunəlik sayında azalma tendensiyası, əsasən, mobil şəbəkələrin geniş əhatə dairəsi, internet paketlərinin əlçatan olması və yeni nəsil ünsiyyət vasitələrinin populyarlaşması ilə bağlıdır”.

### “ETİBARLILIQ” VƏ “ƏNƏNƏ” RƏMZİ

Mütəxəssis bildirir ki, stasionar telefon “etibarlılıq” və “ənənə” rəmzi olaraq qalır: “Telekom operatorları qısa müddətdə tam ləğv planı elan etməsələr də, xidmətin mərhələli şəkildə azalacağı gözlənilir. Bəzi insanlar üçün stasionar telefon artıq sosial simvol və nostalji element kimi qəbul olunur. Xüsusilə ailə tarixində, köhnə evlərdə və müəyyən peşəkar mühitlərdə stasionar telefon “etibarlılıq” və “ənənə” rəmzi olaraq qalır”.



Elvin Abbasov

Foto: Ramil Yunus/Global Photostock

BANKLARIN BİZNES KREDİTLƏRİNİ ARTIRMASI ÇOX MÜSBƏT TENDENSİYA KİMİ QƏBUL EDİLİR

# BANKLARIN BİZNES KREDİTLƏRİNƏ MARAĞI ARTIB

Ekspertlər qeyd edirlər ki, bazarda özünü tutmuş biznes subyektləri ilə işləmək banklar üçün daha faydalıdır. Bu şəxslərin müştəri seqmenti olduğu üçün onlara kredit vermək az riskli sayılır. Banklar bu biznes subyektlərinə kredit verməkdə daha maraqlıdır.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycanda bankların biznes kreditləri portfelinin həcmi 15 milyard 143,7 milyon manat təşkil edib. Biznes kreditləri portfeli son bir il ərzində (illik müqayisədə) 1 milyard 268,9 milyon manat və ya 9,1 faiz artıb. Portfel ötən ilin sonu ilə müqayisədə isə 356,5 milyon manat və ya 2,4 faiz böyüyüb. Aylıq artım isə 43,7 milyon manat və ya 0,3 faiz təşkil edib. Qeyd edək ki, iyunun 1-nə biznes kreditləri portfeli 15 milyard 100 milyon manat, ötən ilin sonunda 14 milyard 787,2 milyon manat, ötən ilin eyni dövründə isə 13 milyard 874,8 milyon manat təşkil edib.

### "BU SAHƏLƏRDƏ KREDİTLƏRƏ DAHA ÇOX TƏLƏBAT VAR"

Maliyyə və bank məsələləri üzrə ekspert Emin Kərimov bildirdi ki, biznes kreditlərinin artması çox müsbət tendensiyadır: "Deməli biznes mühitində müsbət dəyişikliklər var. Bu həm ölkədə biznes mühitinin inkişafında, həm də banklarda biznes kreditlərinin verilməsində təkmilləşmələrin aparılmasının bariz nümunəsidir. Kreditlərin artım tempi ölkədə iqtisadi fəallığın artması deməkdir. Çünki sahələr üzrə rəqabətin güclənməsi, yeni tendensiyaların ölkəyə gətirilməsi, yerli bazara uyğun biznesin inkişaf etdirilməsi biznesə olan tələbatın güclənməsi ilə izah olunur".

E.Kərimovun fikrincə, biznes kreditlərindəki artım istehsal və xidmət sektorunda kreditlərə daha çox tələbat olduğunu göstərir: "Nəzərə alsaq ki, biznes kreditlərində inkişaf tempi daha yüksəkdir. Bu da o deməkdir ki, ölkədə biznes mühitinin stimullaşdırılması eyni zamanda gəlirli sahə olduğunu göstərən işlər görülür. Həm dövlət tərəfindən dəstəyin verilməsi, eyni zamanda özəl sektorda sağlam rəqabətin güclənməsi biznes kreditlərinə tələbi artırır. İstehsal və xidmət sahəsi biznes kreditlərindən daha çox istifadə edir".






Emin Kərimov



Ruslan Atakişiyev

## "2025-2026-CI İLLƏRDƏ BİZNES KREDİTLƏRİ DAHA DA ARTACAQ"

Ekspert banklar üçün biznes kreditlərinin mənfi və müsbət tərəflərindən də danışdı: "Bazarda özünü tutmuş biznes subyektləri ilə işləmək banklar üçün də faydalıdır. Bu şəxslərin müştəri seqmenti olduğu üçün onlara kredit vermək daha az risklidir. Banklar bu biznes subyektlərinə kredit verməkdə daha maraqlıdır. Amma biznes başlayan və ya iflasa gedəndirsə, burada risklər mövcuddur. Həmçinin biznes kənar amillər nəticəsində zəifləyə və çökə bilər. Bu risklər həmişə mövcud olacaq. Çünki həm biznes, həm də banklar xarici amillərin təsirindən asılıdır".

E.Kərimov qeyd etdi ki, 2025-2026-cı illərdə biznes kreditlərinin daha da artacağı gözlənilir: "Çünki inflyasiya tənzimlənir. Ölkəmizin beynəlxalq nüfuzunun artması, eyni zamanda Zəngəzur dəhlizinin açılması ilə əlaqədar logistika xidmətlərinin, yük daşımaların həcminin artması biznes mühitinə də müsbət təsirini göstərəcək".

## "ALTERNATİV MALİYYƏ MƏNBƏLƏRİ İNKİŞAF ETDİRİLMƏLİDİR"

"İqtisadi Resursların Öyrənilməsi Mərkəzi" İctimai Birliyinin sədri, iqtisadiyyat üzrə fəlsəfə doktoru Ruslan Atakişiyev isə düşünür ki, sahibkarların biznes kreditindən başqa müraciət edəcəyi vasitə yoxdur: "Azərbaycanda bizneslərin əsas maliyyə mənbəyi bankların verdiyi vəsaitlərdir. Mikro sahibkarlıq subyektlərinin 45 faizindən çoxu maliyyə tələblərini ödəmək üçün banklara müraciət edirlər. Son dövrlər banklar tərəfindən verilən vəsaitlərin biznes üçün əsas maliyyələşmə mənbəyi olması bir neçə səbəbdən irəli gəlir. Çünki maliyyə bazarı gözlənilən şəkildə inkişaf etməyib. Xüsusən də qiymətli kağızlar bazarı. Bizneslər bundan vəsaitlərinin genişlənməsi üçün istifadə etmir. Həmçinin alternativ maliyyə alətləri var. Qanunvericiliyin tələblərinin uyğun olmaması və çeşidlərin azlığı səbəbindən bəhrələnə bilmirlər. Ona görə də bankların verdiyi kredit əsas maliyyə mənbəyi sayılır".

R.Atakişiyevin sözlərinə görə, artımın səbəbi biznes kreditləri ilə bağlı bir sıra dövlət tədbirlərinin həyata keçirilməsidir: "Xüsusən də Şərqi Zəngəzur, Qarabağ zonasında aşağı həcmli vəsaitlərin götürülməsi ilə bağlı dövlət zəmanətinin verilməsinin həcminin artırılması, kredit vəsaitlərində faiz dərəcələrinin subsidiyalaşması, dövlət mənbələri hesabına vəsaitlərin verilməsi zamanı kredit faizlərinin aşağı olması, girovsuz vəsaitlərin verilməsinin həcminin genişlənməsi biznes kreditlərini artırıb. Amma hər bir halda alternativ maliyyə mənbələri inkişaf etdirilməlidir. Xüsusən də vergi kapitalı, İslam bankçılığı, qiymətli kağızlar bazarının inkişafına ehtiyac var ki, sahibkarlıq subyektləri təkcə bank kreditlərindən yox, digər vasitələrdən də istifadə edə bilsin".

# BACADAN GƏLƏN TƏHLÜKƏ

## 40 İLDƏN ÇOXDUR TƏMİZLƏNMƏYƏN BACALAR VAR

Tüstü bacalarının yoxlanılması və təmizlənməsi ilə bağlı yeni qaydalar hazırlanır. Ekspertlər bu sahədə vəziyyətin hələ də qənaətbəxş olmadığını qeyd edirlər.

SEVİNC ABBASOVA

Yay mövsümü başa çatır, qarşıdan soyuq günlər gəlir. Bir müddət sonra pəncərələr qapanacaq, evlərdə sobalar işə düşəcək. Lakin evlərimizi isitmək üçün açdığımız o kiçik qapılar, bəzən görünməyən bir təhlükəyə yol açır. Səssiz, görünməz və ölümcül dəm qazı hər mövsüm bizi gözləyir. Statistika göstərir ki, hər il dəm qazından zəhərlənmə halları artmaqdadır. Mütəxəssislərin fikrincə, bu kimi halların əsas səbəblərindən biri tüstü bacalarındakı problemlərdir. Son illərdə bu istiqamətdə hüquqi baza gücləndirilib. Qaz qurğularına, qaz xətlərinə, tüstü bacalarına, havalandırma və havadəyişmə xətlərinə texniki xidmət qaydalarının pozulmasına görə sərt cərimələr nəzərdə tutulur. Belə ki, qaydaları pozan fiziki şəxslər 200-400 manat, vəzifəli şəxslər 1000-1500 manat, hüquqi şəxslər isə 2500-3000 manat məbləğində cərimələnə bilərlər.

Ölkə prezidentinin "Qaz təchizatı haqqında" qanunun tətbiqi ilə bağlı bu yaxınlarda imzaladığı fərmanda da tüstü bacalarında və havalandırma xətlərində müayinənin keçirilməsi qaydalarının hazırlanması tapşırılıb. Bəs, görəsən, ölkədə tüstü bacaları ilə bağlı ümumi vəziyyət necədir? Yeni qanun bu sahədə nəyisə dəyişəcəkmi?

Kommunal məsələlər üzrə ekspert Nüsrət Qasımov ölkədəki tüstü bacalarının durumunu qənaətbəxş saymır. Onun sözlərinə görə, bəzi bacalar 40 ildən çoxdur ki, təmizlənmir: "Bu sahədə problemlər kifayət qədərdir. Çünki tüstü bacalarını təmizləyən konkret qurum yoxdur. Bəzi podratçı şirkətlər bu işi öz üzərlərinə götürüblər. Amma təmizləmə ödənişli olduğundan hamının imkanı çatmır".

Ekspert vurğulayıb ki, qaz qurğularının tüstü bacaları mütləq kvartalda bir dəfə yoxlanılmalı və təmizlənməlidir: "Çünki qaz yandıqca qurum yığılır və cihazların gözü tutula bilər. Ona görə bu, mütəxəssislər tərəfindən yoxlanmalıdır. Bunu əhali özü edə bilməz. "Kirpi" deyilən bir alət var, onu yuxarıdan aşağı buraxırlar. Təmizləndikdən sonra da tüstü bacasına məşəl yaxınlaşdırırlar. Əgər məşəl tüstü bacasının dəliyinə tərəf meyllənirsə, deməli, çəkir, əgər düz qalırsa və ya əks tərəfə vurursa, onda işləmir. Bu işlə ancaq peşəkarlar məşğul olmalıdırlar".

Qaz sobalarının istismar müddətinə də diqqət çəkən ekspert deyib ki, dördgözlü sobaların istismar müddəti 20, su qızdırıcılarının isə 10 ildir: "Çox təəssüf ki, hələ də sovet dövründən qalan cihazlardan istifadə edilir. Bu, böyük riskdir. Dəm qazı yanma prosesinin natamam getməsi nəticəsində əmələ gəlir".

### "BACALARIN TƏMİZLİYİ DÖVLƏT HESABINA OLMALIDIR"

Yeni qanundan gözləntilərə toxunan N.Qasımov hesab edir ki, qaydalar hazırlanarkən bütün problemlər nəzərə alınmalıdır: "Qaydalarda tüstü bacalarında və havalandırma xətlərində müayinənin keçirilməsi mexanizmləri daha detallı hazırlanmalıdır. Həm bacaların müayinəsinə, həm də təmizliyinə cavabdeh qurumlar konkret göstərilməlidir. Eyni zamanda, tüstü bacalarının təmizliyi dövlət hesabına nəzərdə tutulmalıdır. Bu halda hansısa irəliləyişdən danışa bilərik. Əks təqdirdə, qanun elə kağız üzərində qalacaq".

### BU SAHƏDƏ MÜSBƏT DÖNÜŞ YARANA BİLƏR

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev bildirib ki, tüstü bacalarının təmizlənməsi yalnız fərdi evlər üçün deyil, çoxmənzilli binalar, restoranlar və digər iaşə obyektləri üçün də həyati əhəmiyyət daşıyır: "Qaz yandıqdan sonra ayrılan tüstü mütləq bacalar vasitəsilə çölə çıxmalıdır. Əgər bacalar təmizlənməsə, orada yığılan yağ və toz yanğın təhlükəsi yaradır, natamam yanmaya səbəb olur və nəticədə dəm qazı əmələ gəlir. Bu, insan həyatı üçün birbaşa təhlükədir. İnsanların həyat və sağlamlığı üçün tüstü bacalarının təmiz saxlanılması vacibdir".

Ekspertin sözlərinə görə, bəzi evlərin bacaları illərlə təmizlənmir, sakinlər bunun vacibliyini anlamırlar: "Əlbəttə, tüstü bacalarının təmizlənməməsi daha böyük bədbəxt hadisələrə gətirib çıxarır. Elə olur ki, tüstü bacalarının içərisində məişət tullantıları olur, quşlar yuva salır. Bu zaman tüstü bacası istifadəyə yararsız hala gələ bilər. İnsanlar özləri də bacalarını təmizləyə bilərlər. Amma ən doğru yol bu işi ixtisaslaşmış şirkətlərə həvalə etməkdir. Güman edirəm ki, yeni qanun bu istiqamətdə müsbətə doğru dəyişikliklər yaradacaq".






## SAHİBKARLAR ARASINDA MƏSULİYYƏT ARTSA DA...

Tüstü bacalarının təmizliyi xidmətini təklif edən şirkətlərdən birinin direktor müavini Elvin Dadaşov isə qeyd edib ki, son illərdə sahibkarlar arasında məsuliyyətin artması hiss olunur, lakin hələ də bu məsələni ciddi qəbul etməyənlər çoxdur: "Yanğın təhlükəsizliyi qaydalarının 7.3 bəndinə əsasən, isitmə mövsümü başlanmazdan qabaq tüstü bacaları qurumdan təmizlənməlidir. Eyni zamanda, bütün isitmə mövsümü ərzində qızdırıcı sobalar üçün üç ayda bir dəfə, dayandırılmamış sobalar və istilik qurğuları üçün iki ayda bir dəfə, mətbəx plitələri və başqa yeməksiz yandırılan sobalar üçün ayda bir dəfə təmizlik aparılmalıdır. Bu istiqamətdə Fövqəladə Hallar Nazirliyi tərəfindən aylıq yoxlamalar keçirilir. Qaydalara əməl olunmadıqda cərimələr tətbiq edilir. Ona görə də sahibkarlar son illər sözügedən məsələdə daha məsuliyyətli davranmağa başlayıblar".

### BACA TƏMİZLİYİNDƏ İCBARİLİK TƏLƏBİ

Şirkət təmsilçisinin sözlərinə görə, əhali qrupu abonentlərdən tüstü bacalarının təmizlənməsi ilə bağlı sifarişlər nadir hallarda gəlir: "Çünki onlara nəzarət edən Mənzil Kommunal İstismar Sahələridir. Ara-sıra 10-15 sifariş gəlir. Biz də həmin sifarişləri qəbul edib təmizliyi aparırıq. Sifarişlər yalnız sovet dövründə tikilən binalardan daxil olur. İndiyədək yeni tikililərdən hər hansı sifariş götürməmişik. Əhalidən tüstü bacalarının təmizlənməsi üçün gələn sifarişin minimum qiyməti 100 manat, sahibkarlardan gələn sifarişin qiyməti isə 150 manat olduqda həmin sifarişi qeydiyyata alırıq". Elvin Dadaşov vurğulayıb ki, yeni qanunvericilik bazasında bu işlərin icbari şəkildə aparılması öz əksini taparsa, dəm qazı təhlükəsini minimum həddə endirmək mümkün ola bilər.

# ASİYANIN TƏZADLAR ŞƏHƏRİNDƏN REPORTAJ

**Kuala Lumpuru Nyu-Yorkun Asiya versiyasına bənzədirlər. Şəhərdə etnik müxtəliflik xüsusilə nəzərə çarpır və hər şeydə özünü göstərir: memarlıqdan və kulinariyadan tutmuş taksi sürücülərinə qədər.**









TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Məscidlər, məbədlər, ultra müasir göydələnlər, dünyanın ən hündür əkiz qüllələri, hər yerdən çoxlu sayda insan, köhnə "Moorish" üslublu dəmir yolu stansiyası, yaşıl parklar... Bütün bu elementlər Şərqlə Qərbin, ənənələrin və yeniliklərin rəngarəng qarışığı olan Kuala Lumpurda cəmləşib. "Kuala Lumpur Nyu-Yorkun Asiya versiyasına bənzəyir", - deyə qeyd edirlər. Şəhər müasir meqapolisdir. Burada üç sivilizasiya - Çin, Hindistan və Malay mədəniyyəti və ənənələri bir-birinə qarışıb.

## QALAY MƏDƏNÇİLƏRİNİN MƏSKƏNİ

Şəhər vaxtilə qalay mədənçilərinin məskəni kimi tanınıb. O dövrdə şəhərin adı Malay dilində "çirkli çay ağzı" mənasını verib. Şəhər səksəninci illərdə böyüyüb və Malayziya Federasiyasının paytaxtına və Cənub-Şərqi Asiyanın ən sürətlə inkişaf edən şəhərlərindən birinə çevrilib.

Hər bir metropolda olduğu kimi, Kuala Lumpurda da etnik müxtəliflik xüsusilə nəzərə çarpır və hər şeydə özünü göstərir: memarlıqdan və kulinariyadan tutmuş taksi sürücülərinə qədər. Çinlilər və hindlilərin köçü Malayziyaya uzaq koloniyaları inkişaf etdirmək üçün əməkçiyə ehtiyacı olan ingilislər sayəsində mümkün olub. Bu gün çinlilər Malayziyada yerli malaylardan sonra ikinci, hindular isə üçüncü ən böyük etnik qrupdur.

## "BURADA HƏYAT QAYNARDIR"

Şəhər həm də böyük nəqliyyat mərkəzidir. Hava limanında miqrasiya idarəsinin qeydiyyatından və sərhəd-keçid xidmətinin ciddi yoxlamalarından keçib şəhərə daxil oluruq. Düzdür, hava limanına gecə çatan turistlərə taksi sürücüləri "qiymət oxumağı" xoşlayırlar. Qiymətdə razılaşmayanda seçim çoxdur, KL Sentrala doğru mükəmməl nəqliyyat sistemi qurulub. Şəhər nəqliyyatına avtobuslar, monorels və skytrain daxildir. Əvvəlcə maşinistsiz idarə olunan qatarları görüncə çaşırsan, lakin texnologiyaların son dərəcə inkişaf etdiyi bir ölkədə olduğunu anlayırsan. Dünyanın istənilən metropolunda olduğu kimi, burada da nəqliyyat çox sıxdır. "Asiya ölkələrinin insanları Kuala Lumpura niyə axışır?" - deyə taksi sürücüsündən soruşanda, "burada həyat qaynardır, iş təklifi çoxdur, yaşayış ucuzdur, təhlükəsizlik var" - deyə bildirdi.

Ölkənin inkişaf edən iqtisadiyyatı var: qida, metal və ağac emalı, sement və rezin emalı sənayeləri inkişaf edib. Malayziya elektronika üzrə dünyanın aparıcı istehsalçılarından birinə çevrilib. Burada dəmir yolu avadanlıqları da istehsal olunur. Bu baxımdan ölkədə işsizlik problemi yoxdur. Turizmin inkişafı ölkə iqtisadiyyatını gücləndirir. Kuala Lumpur mütəmadi olaraq əcnəbilərin yaşaması üçün ən yaxşı şəhərlərin dünya reytinqində özünü tapır. Turistlərin arasında ruslar çoxluq təşkil edir.

## PAYTAXTIN TƏZADLI İMİCİ

Malayziya müsəlman ölkəsidir, amma insanlar radikal dindar deyillər. Paytaxtda yerli əhali 15-20 faiz təşkil edir.

Malayziya paytaxtının orijinal görüntüsü ilə tanış olmaq üçün "Hop-on-Hop-off " avtobusunu seçirik. Şəhərlə tanışlığa paytaxtın bütün yollarının birləşdiyi yerdən - Camek məscidindən başlayırıq. Kuala Lumpurda dini ərazilərə daxil olarkən xüsusi geyimlərdən istifadə olunur. Müstəqillik meydanı, Sultan Əbdül Səmədin sarayı, Petronas əkiz qüllələri, hind və çin məbədləri, Botanika bağı mütləq görməli yerlərdəndir. Göydələnlərin mənzərəsi paytaxtın təzadlı imicinə xüsusi gözəllik və müasirlik əlavə edir. Burada Şərq, Qərb, ənənə və innovasiyalar bir-birinə qarışıb.

Hökumət və baş nazir mərkəzdən yaxınlıqdakı Putracayaya köçüb və Malayziyanın inzibati mərkəzi indi orada yerləşir. Əzəmətli Kral Sarayı turistlər üçün çox maraqlıdır. Turistlər sarayın ön qapısında Malayziya Kralının atlı və sıravi mühafizəçiləri ilə şəkil çəkdirmək imkanını əldən vermirlər. Brickfields (Kiçik Hindistan) küçəsi ilə davam edirik. Burada özünü Hindistanda hiss edirsən. Filmlərdən vərdiş etdiyimiz kimi, hind qadınları çox maraqlı rəngli sarilər geyiniblər. Ətrafda hind meyvələri və suvenirləri satan çoxlu piştaxtalar var, hind musiqisi eşidilir.

"Chinatoun"da - Çin mahalında çinlilərin həyat tərzi ilə tanış oluruq.

## ASİYA GƏNCLƏRİNİ CƏLB EDƏN UNİVERSİTETLƏR

Şəhər gənclərlə qaynayır. Onların çoxu tələbələrdir. Kuala Lumpurun iki universiteti - Malaya Universiteti və Malayziya Texnologiya Universiteti yüksək təhsili ilə Asiya ölkələrinin gənclərini cəlb edir. Təhsil keyfiyyəti yüksəkdir. Burada daha çox Asiya ölkələrindən olan tələbələr təhsil alırlar. Malayziyada özəl məktəblərdə təhsilin keyfiyyəti çox yüksəkdir və qiyməti münasibdir.

Kuala Lumpurda axşam saatlarında küçələr canlanır. Bura orijinal şərq mətbəxi ilə tanış olmaq istəyən qurmanlar üçün cəlbedici yerdir. Yerli mətbəx Malayziya, Çin, Hindistan və hətta Afrika qastronomik ənənələrinin qarışığıdır. Burada ən sevimli məhsul milli yeməklərin əksəriyyətinin reseptlərinə daxil olan düyüdür. Restoran yeməkləri adambaşına orta hesabla 10-15 dollardır. İnkişaf etmiş bu müasir şəhərdə küçə yeməkxanalarında təqdim olunan yeməklər də var. Qəribə maddələr, qeyri-adi dadlar, xoşagəlməz qoxular və tamamilə anlaşılmaz adlar yemək seçimini çətinləşdirir. Asiyaya ilk dəfə baş çəkən adam bu ədviyyatlı yeməkləri heç sevməyə və ac qala bilər.

Kuala Lumpurda çoxlu böyük ticarət mərkəzləri, səs-küylü bazarlar və özünəməxsus yerli məhsullar satan kiçik mağazalar var. İnsanlar sanki səhərə qədər oyaqdır, sübh çağına kimi küçələrdə nə avtomobillərin, nə də insanların səsi kəsilir...

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
13 SENTYABR ŞƏNBƏ 2025
www.kaspi.az



# CƏMİ BİR GÜNƏ DƏYİŞƏN YIĞMA

Yığmamız Ukraynaya qarşı döyüşməyi bacardı. Hesabda geri düşsək də, əzmkarlıq göstərərək güclü rəqibdən bir xal qopardı. Çətin psixoloji durumda komandanı toparlaması Ayxan Abbasovun məşqçi və mentor kimi bacarığının göstəricisidir.

Futbol üzrə Azərbaycan milli komandası növbəti kvalifikasiya oyunlarına başladı. Yığmamız dünya çempionatının seçmə mərhələsində iki oyunda meydana çıxdı. D qrupunda yer alan komanda bu qarşılaşmalardan sonra bir xalla dördüncü pillədədir. Millimiz Ukrayna ilə eyni nəticəni göstərib.

### REYKYAVİKDƏ FİASKO

Komandamız mübarizəyə İslandiyaya qarşı səfər qarşılaşması ilə başladı. Reykyavikdə keçirilən görüş biabırçı nəticə ilə "yadda qaldı". Rəqibinə müqavimət göstərə bilməyən komanda 0:5 hesablı ağır məğlubiyyətlə üzləşdi. Oyunda baş verənlər barədə çox bəhs etməyə dəyməz. Çünki, ümumiyyətlə, millimizin meydanda nə etməyə çalışdığı bəlli deyildi. Məzmunsuz oyun, ruhsuz futbolçular, heç bir özfəaliyyəti olmayan baş məşqçi Fernandu Santuş və istədiyini edən islandiyalılar - qarşılaşmanın qısa ifadəsi məhz bu cürdür. Onsuz da dörd komandalı qrupda yığmamızın işi çətin idi. Etiraf etməliyik ki, Fransa, Ukrayna və İslandiya ilə mübarizədə ən yaxşı halda bir neçə xal əldə etmək mümkün görünürdü. Lakin islandlara qarşı 0:5 hesablı yenilgi tamamilə gözlənilməz oldu.

### FERNANDU SANTUŞA VİDA

İslandiya ilə qarşılaşma Fernandu Santuşun yığmamızın baş məşqçisi kimi son oyunu oldu. Matçdan sonra elə mətbuat konfransındaca portuqaliyalının məsuliyyəti üzərinə götürüb istefa verəcəyi gözlənilsə də, o, özündə bu cəsarəti tapmadı. Lakin məlum idi ki, belə biabırçı məğlubiyyətin cəzası ağır olacaq. Elə AFFA-nın baş katibi Cahangir Fərəcullayev də görüşdən sonra media nümayəndələrinə açıqlamasında bu nəticəni Santuş tərəfindən Azərbaycan xalqına qarşı hörmətsizlik adlandırmış və özü istefa verməyəcəyi təqdirdə, assosiasiyanın lazımi addımları atacağını bildirmişdi. Gözlənilən kimi də oldu. Ukraynaya qarşı ikinci tur oyunundan öncə Fərəcullayev portuqaliyalı mütəxəssislə yolların ayrıldığını açıqladı.

## AFFA-dan doğru qərar

Santuş milli komandada bir ildən artıq müddətdə iş başında oldu. Bu dövrdə 11 qarşılaşmada bir qələbə belə qazana bilməyən yığma doqquz görüşdə məğlubiyyətlə üzləşdi ki, burada Reykyavik faciəsi ilə yanaşı İsveçə 0:6 hesablı yenilgi də var idi. Beləliklə, Santuş milli komandada yalnız böyük hesablı məğlubiyyətlər, məzmunsuz oyun, yanlış heyət və taktiki seçimlər və antirekordlarla "yadda qaldı". Halbuki ondan gözləntilər böyük idi. Hətta Millətlər Liqasındakı fiaskodan sonra belə, AFFA ona güvəndi və ideyalarını tətbiq etmək üçün zaman verdi. Lakin görünən odur ki, tamamilə tükənmiş Santuşun Azərbaycan futboluna verəcəyi heç nəyi yox imiş.

Bəlkə, hələ komanda Millətlər Liqasında D Divizionuna düşərkən Santuşla vidalaşmaq lazım idi. Bununla belə, ziyanın yarısından qayıtmaq da xeyirdir. İslandiyaya qarşı matç sübut etdi ki, Santuşa dözməyin artıq mənası yoxdur. AFFA doğru qərarı verdi. İstefanın Ukraynaya qarşı görüşdən bir gün öncə açıqlanması qərarın arxasındakı qətiyyətin göstəricisidir.

## Ayxan Abbasovun döyüşkən kollektivi

Santuşun istefasından sonra millini Ukrayna qarşısına U-21 yığmasının baş məşqçisi Ayxan Abbasovun çıxarması qərara alındı. Əlbəttə, milli komandanı çalışdırmaq hər bir yerli mütəxəssis üçün şərəfdir, lakin belə bir çətin məqamda razılıq verməsi Ayxan Abbasovun cəsarətini göstərir. Komanda onun üzünü ağ etməyi bacardı. Yığma daha güclü Ukraynaya qarşı sözün əsl mənasında döyüşdü. Belə bir psixoloji durumda komandanı toparlaması Ayxan Abbasovun məşqçi və mentor kimi bacarığının göstəricisidir. Əlbəttə, çox qısa müddətdə futbol fəlsəfəsi baxımından çox şeyi dəyişmək mümkün deyildi və o, buna cəhd də etməmişdi. Yalnız futbolçuları psixoloji çöküşdən çıxarmaq olardı ki, mütəxəssis bunu etməyi bacardı. Məhz Abbasovun bu posta təyin edilməsi AFFA rəhbərliyinin də düzgün addım atdığının göstəricisidir. Futbolçularımız isə start fitindən sona qədər göstərdikləri əzmkarlıq, döyüşkən oyunla azarkeşlərin rəğbətini qazana bildilər. Fanatların istədiyi məhz milli formaya yaraşan mübarizlikdir. İslandiya ilə görüşdə çatışmayan bu məqam Ukraynaya qarşı matçda ən çox qabaran amil idi.

### QARŞIDA NƏ VAR?

Millimizi il sonuna qədər seçmə mərhələdə daha dörd oyun gözləyir. Oktyabrda Fransa və Ukraynanın qonağı olacaq komanda noyabrda İslandiya və Fransanı qəbul edəcək. Xüsusən, belə startdan sonra qrupda yuxarı pillələrdə qərarlaşmaq çətindir. Lakin ən azı bu görüşlərdə layiqli mübarizə aparmaq mümkündür. Millini qarşıdakı matçlara kimin çıxaracağı hələ bəlli deyil. Yeni çalışdırıcının yerli, yoxsa əcnəbi olacağı da bilinmir. Santuş dövründəki problemlərin təkrarlanmaması üçün diqqətli seçim edilməlidir. Santuşun göndərilməsi ilə AFFA-ya ictimai etimad möhkəmlənib, indi daha səlis addımlar atmaq zamanıdır.



Fernandu Santuş

Fotolar: Tapdıq Abdullayev/Global Photostock